

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 33 (773) ■ 26 avqust 2015 www.vergiler.az Qiyməti: 40 qəp.

# Düzgün sosial-iqtisadi islahatlar uğurlara yol açır

**Azərbaycan Prezidenti cənab İlham Əliyev respublikamızda əldə edilən uğurlardan danışarkən demişdir:** *«Dünyada və bölgədə müxtəlif proseslər getdiyi bir zamanda Azərbaycan öz sürətli inkişaf tempini saxlaya bilmişdir. Ölkəmizin təhlükəsizliyi təmin edilmişdir, iqtisadi və sosial proqramlar icra olunmuşdur. Bu, bir daha onu göstərir ki, bizim tutduğumuz yol düzgün yoldur. Azərbaycan müstəqillik, inkişaf yolu ilə gedir. Bir neçə il bundan əvvəl dünyanı bürümüş iqtisadi və maliyyə böhranı, eyni zamanda, bölgədə baş verən xoşagəlməz hadisələr, toqquşmalar Azərbaycanın uğurlu inkişafına təsir etməmişdir. Bunun başlıca səbəbi Azərbaycanda ictimai-siyasi vəziyyətin sabit olmasıdır, xalqla iqtidar arasındakı birlikdir və bizim bütün proqramlarımızın uğurla icrasıdır. Azərbaycanın apardığı xarici və daxili siyasət xalq tərəfindən dəstəklənir və əminəm ki, görüləcək işlər nəticəsində Azərbaycan daha da*



Son illər Azərbaycanda həyata keçirilən düşünülmüş və düzgün iqtisadi siyasət nəticəsində ölkədə möhkəm maliyyə-iqtisadi baza yaradılmış, qeyri-neft sektorunun dinamik inkişafı və ölkə iqtisadiyyatının diversifikasiyası, regionların tarazlı inkişafı, səmərəli beynəlxalq iqtisadi əməkdaşlıq, dünya iqtisadiyyatına inteqrasiya prosesi sürətlənmiş və son nəticədə Azərbaycanın hər bir vətəndaşının rifahının yüksəldilməsi ilə bağlı müsbət dəyişikliklər baş vermişdir. Sevindirici haldır ki, əldə olunan bu uğurlar daimi xarakter almışdır. Respublika Statistika Komitəsinin hesabatında göstərilir ki, 2015-ci ilin yeddi ayında Azərbaycanın həm iqtisadi, həm də sosial sahələrində dinamik inkişaf davam etmişdir. Ölkədə fəaliyyət göstərən müəssisə, təşkilat və fiziki şəxslər tərəfindən 2015-ci ilin yanvar-iyul aylarında 32,1 milyard manatlıq və ya ötən ilin müvafiq dövründəkindən 5,6 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur. Əlavə dəyərin 35 faizi sənayedə, 12,5 faizi ticarət, turistlərin yerləşdirilməsi və ictimai iaşə xidmətləri sahələrində, 13,6 faizi tikinti kompleksində, 5,7 faizi nəqliyyatda, 6 faizi kənd təsərrüfatında, 1,9 faizi rabitədə, 17,2 faizi digər sahələrdə yaradılmışdır. Məhsula və idxala xalis vergilər ÜDM-in 8,1 faizini təşkil etmişdir.

2014-cü ilin eyni dövrü ilə müqayisədə əlavə dəyər qeyri-neft sektorunda 9 faiz, neft-qaz sektorunda isə 1 faiz artmışdır. Yanvar-iyul aylarında sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fiziki şəxslər tərəfindən 15,8 milyard manatlıq və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,5 faiz çox sənaye məhsulu istehsal edilmişdir. Mədənçıxarma bölməsində məhsul istehsalı 2 faiz, o cümlədən əmtəəlik qaz hasilatı 10,6 faiz artmış, neft hasilatı isə 1,8 faiz azalmışdır.

Bu gün Azərbaycanın qeyri-neft sektoru sürətli yüksəliş dövrünü yaşayır. Bu, həm də daxili investisiyaların həcminin artımında özünü göstərir. Bir sıra dövlətlərin təcrübəsində uğurla sınaqdan çıxmış, özünü doğrultmuş bu iqtisadi strategiya neftdən əldə olunan gəlirlərin qeyri-neft sektoruna, istehsal sahibkarlığının inkişafına yönəldilməsini, özəl sektorun ümumi daxili məhsulda xüsusi çəkisinin artırılmasını nəzərdə tutur. İqtisadiyyatın bütün sahələrinin inkişafı həm də makroiqtisadi sabitliyin qorunub saxlanılması və maliyyə təhlükəsizliyinin təmini baxımından vacib əhəmiyyət kəsb edir.

Son illərdə Azərbaycan xaricdən sərmayə alan ölkədən xaricə sərmayə yatıran ölkəyə çevrilmişdir. Hazırda Türkiyə, Ukrayna, Gürcüstan, Moldova, İsveçrə, Rusiya və digər dövlətlərin iqtisadiyyatına böyük həcmdə investisiya qoyulur. Bütün bunlar həm də respublikamızın inkişaf etməkdə olan ölkədən inkişaf etmiş ölkəyə çevrilmək əzmini nümayiş etdirir. Əslində, Azərbaycan bu gün adambaşına düşən 7 min dollarlıq milli gəlirlə orta inkişaf etmiş ölkələr qrupunda yer alır. Ölkə başçısı bununla bağlı demişdir: «İnvestisiyalar artır və daxili investisiyalar üstünlük təşkil edir. Düzdür, daxili investisiyaların böyük hissəsi dövlət investisiyalarıdır. Bu da təbiidir. Çünki hələ də dövlət xətti ilə infrastruktur layihələrinə, o cümlədən sosial infrastruktur layihələrinin icrasına vəsait ayrılmalıdır. Ancaq Azərbaycana özəl sərmayə də qoyulur. Azərbaycanda çox müsbət sərmayə iqlimi vardır, yerli və xarici investorlar bizim ölkəmizə inanırlar, ölkəmizin gələcəyinə inanırlar. Buna görə Azərbaycana çox böyük həcmdə investisiyalar qoyulur».

Hazırda dünyanın əksər ölkələri xarici investisiyaları cəlb etmək üçün rəqabət aparır. Çünki hər bir ölkənin iqtisadi inkişafını investisiyalar müəyyən edir. Bu gün Avrozonada müşahidə olunan vəziyyət onu göstərir ki, investisiyalar olmasa, Avropa iqtisadiyyatının böhrandan çıxması çox çətin olacaq. Azərbaycan iqtisadiyyatına yatırılan sərmayənin həcmi isə ilbəil artmaqdadır. Bununla bağlı bir fakta diqqət yetirək. Bu ilin yanvar-iyul aylarında əsas kapitala 9368,5 milyon manat məbləğində, yaxud ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,5 faiz çox vəsait yönəldilmişdir. İstifadə olunmuş vəsaitin 6259,6 milyon manatı və ya 66,8 faizi məhsul istehsalı obyektlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş vəsaitin 5494 milyon manatı daxili vəsaitlər olmuşdur. Bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuş vəsait 2014-cü ilin eyni dövrü ilə müqayisədə 11,6 faiz artaraq 6998,2 milyon manat təşkil etmişdir.

Son illərdə Azərbaycanda yüzlərlə yeni iri və orta sənaye müəssisəsi fəaliyyətə başlayıb. Bu müəssisələrin bir çoxunun məhsulları xaricə ixrac olunur və dünya bazarında analoji məhsullarla uğurla rəqabət apararaq özünə alıcılar tapır. İndi ölkəmizin qarşısında duran əsas məqsəd inkişaf etmiş dövlətlər sırasına çatmaqdır. Buna nail olmağın yeganə yolu isə ölkənin müasir texnologiyalara əsaslanan güclü sənaye potensialının yaradılmasıdır. Hazırda ölkədə aparılan iqtisadi siyasətin başlıca hədəfi də budur.

Prezident İlham Əliyev dəfələrlə vurğulamışdır ki, Azərbaycanın gələcək inkişafı sənayenin inkişafı ilə sıx bağlıdır. Hazırda Azərbaycan dövlətinin kifayət qədər vəsaiti var və dövlət investisiyaları da strateji əhəmiyyət daşıyan sənaye sahələrinə cəlb edilir. Azərbaycan Prezidenti sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında 8 oktyabr 2014-cü il tarixli fərman imzalamışdır. Sənəddə bildirilir ki, Azərbaycan Respublikasının dövlət siyasəti iqtisadiyyatın hərtərəfli inkişafının təmin edilməsini, o cümlədən yüksək texnologiyalar əsasında sənayenin dinamik inkişafını və şaxələndirilməsini nəzərdə tutur.

Uğurla həyata keçirilən bu siyasətin nəticəsi olaraq son illərdə regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları çərçivəsində müxtəlif təyinatlı çoxlu sənaye müəssisəsi tikilib istifadəyə verilib, yüzminlərlə yeni iş yeri yaradılıb. Ölkədə rəqabətədavamlı sənaye məhsulları istehsalını daha da artırmaq məqsədilə hazırda sənaye parklarının yaradılması istiqamətində böyük işlər görülür.

Regionlarda sahibkarlıq fəaliyyətinin genişləndirilməsində və yerli ehtiyatlardan səmərəli istifadə edilməklə sənaye sahələrinin inkişaf etdirilməsinin daha bir istiqaməti ölkənin ayrı-ayrı şəhərlərində sənaye məhəllələrinin yaradılmasıdır. Sənaye məhəllələri istehsal prosesinin təşkilində infrastruktur xərclərinin azaldılması, kooperasiya əlaqələrinin gücləndirilməsi, kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi və digər məsələlərin həlli baxımından böyük əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramlarında bir qayda olaraq Azərbaycanın kənd təsərrüfatında ənənəvi sahələr olan taxılçılığın, üzümçülüyün, meyvəçiliyin, pambıqçılığın, tütünçülüyün, çayçılığın, ipəkçiliyin və digər sahələrin inkişafı prioritet vəzifə kimi qarşıya qoyulmuşdur. Aqrar bölmənin sürətli inkişafı baxımından bu sahənin normativ hüquqi bazasının, elmi-metodik təminatının və kadr hazırlığı sisteminin təkmilləşdirilməsinə, onun xammal istehsalı və emalı sahələrinin əlaqəli inkişafına, rəqabətqabiliyyətli məhsul istehsalının artırılmasının stimullaşdırılmasına, aqrar bölməyə maliyyə dəstəyinin artırılmasına və bu bölmənin maddi-texniki bazasının möhkəmləndirilməsinə həmişə xüsusi önəm verilmişdir.

Burada bir məqama da xüsusi diqqət yetirmək istərdik. Bu da Azərbaycanda sosial sahəyə mühüm önəm verilməsi ilə bağlıdır. Xatırladaq ki, hazırda ölkənin iqtisadi inkişafından, neft strategiyasının və sahibkarlığın inkişafının uğurlu nəticələrindən əldə edilən dividendlər bilavasitə insanların sosial problemlərinin həllinə, vətəndaşların həyat səviyyəsinin yaxşılaşmasına yönəldilir. Minimum əməkhaqlarının, büdcə təşkilatlarında çalışan ayrı-ayrı vətəndaş kateqoriyalarının məvaciblərinin, pensiya və müavinətlərin, tələbə təqaüdlərinin artırılması, sosial müdafiə sisteminin davamlı şəkildə təkmilləşdirilməsi dövlətin vətəndaşlarına olan diqqət və qayğısının bariz təcəssümüdür.

Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən sosialyönümlü iqtisadi siyasətin əsas mahiyyəti də əhalinin faydalı məşğulluğunun təmin edilməsindən, yeni iş yerlərinin açılmasından, sosial müdafiədə ünvanlılıq və səmərəlilik prinsipinə üstünlük verilməsindən, əlillərin, aztəminatlı, habelə şəhid ailələrinin, bu qəbildən olan digər şəxslərin həyat səviyyəsinin yüksəldilməsinə lazımi şərait yaradılmasından ibarətdir. Bu məsələdə Heydər Əliyev Fondu da mühüm rol oynayır. Fondun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Azərbaycanda ənənə və dəyərlərin qorunub saxlanılması, gənc nəslin vətənpərvər ruhunda tərbiyəsi, mədəniyyətin, incəsənətin inkişafı və dünyada təbliği, cəmiyyətin mənəvi-intellektual intibahı yönündə əzmkar fəaliyyət göstərir.

Fondun qarşıya qoyduğu əsas məqsədlər sırasında bir cəhəti xüsusi vurğulamaq istərdim. Bu da təhsili çağdaş dövrün tələbləri səviyyəsinə yüksəltməkdir. Bunun üçün ölkədə müasir tipli yeni məktəblərin inşasının, tədris prosesinə normal şərait yaradılmasının zəruriliyini düzgün qiymətləndirən fond qarşıya qoyduğu strateji hədəflərə doğru inamla addımlamış, bir sıra uğurlu nəticələr əldə etmişdir. Azərbaycanın birinci xanımının cəmiyyətin maariflənməsinə və milli-mənəvi intibaha xidmət edən təhsil layihələrinin ümdə məqsədi həm də bölgələrdə yeni məktəblərin inşası, onların maddi-texniki təchizatının yaxşılaşdırılmasıdır. Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən, dövlət qurumlarının və vətəndaş cəmiyyətinin bəzi strukturlarının da dəstəklədiyi «Yeniləşən Azərbaycana yeni məktəb» layihəsi çərçivəsində son illər ərzində onlarla yeni məktəb binası inşa olunaraq lazımi avadanlıqlarla təchiz edilmişdir. Keçmiş ittifaqın iqtisadi cəhətdən ən qüdrətli dövründə belə Azərbaycanda məktəb tikintisi belə vüsət almamışdır. Amma Heydər Əliyev Fondu sübut etdi ki, yüksək əzm və iradə, ən əsası, vətənpərvərlik milli inkişafda son dərəcə vacib amildir.

Avroatlantik məkana inteqrasiya kursunu uğurla davam etdirən, transmilli enerji və kommunikasiya layihələrinin lokomotivinə çevrilən, demokratikləşmə yolunda atdığı ardıcıl addımlarla Cənubi Qafqazın ən nüfuzlu ölkəsi kimi tanınan Azərbaycan bu gün bütün sahələrdə dinamik inkişaf edir. Son illərdə makroiqtisadi sabitliyin qorunub saxlanılması, qeyri-neft sektorunun nəzərəçarpacaq dərəcədə artması, inflyasiyanın optimal həddə saxlanılması da hökumətin həyata keçirdiyi inkişaf kursunun səmərəliliyinin əyani göstəricisidir.

**«Xalq qəzeti»**

2 | Vergi ödəyicilərinə göstərilən e-xidmətlərin əhatəsi genişlənir

3 | Turizm sektorunda qiymət siyasətinə yenidən baxmağa ehtiyac var

4 | Xidmət sahələrinin davamlı inkişafında vergi amilinin rolu

5 | Bələdiyyə vergilərinin ödənilmə vaxtıdır

# Dövlət Proqramından irəli gələn vəzifələr uğurla icra edilir

*«Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı» Vergilər Nazirliyinin qarşısında da bir sıra vəzifələr qoymuşdur. Proqramın qəbul edilməsindən bəri ötən bir il ərzində nazirlik tərəfindən görülmüş ardıcıl işlər həmin vəzifələrin uğurla həyata keçirilməsi baxımından böyük əhəmiyyət kəsb edir.*

***Vergi siyasəti və vergi dərəcələri optimallaşdırılıb***

Vergi Məcəlləsinə edilən dəyişikliyə əsasən, 2015-ci il yanvarın 1-dən fiziki şəxslərin əmlak vergisinin binaların inventarlaşdırılmış dəyərinə əsasən deyil, binaların sahəsinin (yaşayış sahələrinə münasibətdə - onların 30 kvadratmetrdən artıq olan hissəsinin) hər kvadratmetrinə görə ödənilməsi nəzərdə tutulur. Torpaq vergisi 10 min kvadrat metrədək olan torpaq sahələri üzrə qüvvədə olan dərəcələr, 10 min kvadrat metrdən artıq olan torpaq sahələri üzrə isə qüvvədə olan dərəcələrdən 2 dəfə artıq dərəcələr tətbiq edilməklə hesablanır.

Vergi Məcəlləsinə edilən digər dəyişikliyə əsasən, kənd təsərrüfatı məhsullarının istehsalçılarına Vergi Məcəlləsində qeyd olunan qaydada mənfəət, əmlak, sadələşdirilmiş və əlavə dəyər vergiləri üzrə 1 yanvar 2014-cü il tarixindən 5 il müddətinə verilmiş güzəştlər, həmçinin körpələr evləri, körpələr evi - uşaq bağçaları, uşaq bağçaları, xüsusi uşaq bağçaları və uşaq evlərinə 1 yanvar 2014-cü il tarixindən 10 il müddətinə verilmiş mənfəət və sadələşdirilmiş vergiləri üzrə güzəştlər qəbul edilmişdir.

***Elektron xidmətlərin çeşidi artırılıb və elektron auditin aparılması metodologiyası hazırlanıb***

Son bir ildə vergi ödəyicilərinə internet üzərindən göstərilən elektron xidmətlərin çeşidi və həcmi genişləndirilib: «Vergi ödəyicisinin təsərrüfat subyektinin (obyektinin) onlayn qeydiyyatı», «Vergi ödəyicisinin filialının, nümayəndəliyinin onlayn qeydiyyatı», «Vergi ödəyicisinin filialının, nümayəndəliyinin onlayn qeydiyyatdan çıxarılması», «ƏDV məqsədləri üçün qeydiyyatın onlayn ləğv edilməsi», «Vergi partnyorluğu Sazişi»nin bağlanması üçün ərizələrin qəbulu, «Cari vergi ödəmələrinin hesablanması haqqında arayış»ın təqdim edilməsi və «Azərbaycan Respublikasında kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatın dərc edildiyi mətbu nəşrdə kommersiya hüquqi şəxsin ləğv edilməsi, kreditorların tələblərinin bildirilməsi qaydası və müddəti haqqında ilk məlumatın dərc edilməsi ilə bağlı müraciətlərin qəbulu və dərc olunma faktını təsdiq edən sənədin verilməsi» kimi daha 7 elektron xidmət üzrə müvafiq proqram təminatları hazırlanaraq istifadəyə verilib. Bundan əlavə, internet üzərindən vergi ödəyicilərinə fəaliyyətlərinin dayandırılması barədə arayışın əldə edilməsi, İnternet Vergi İdarəsində Avtomatlaşdırılmış Bəyannamə Tərtibi (ABT) proqramı yaradılaraq istifadəyə verilib. Elektron xidmətlərin əhatə dairəsinin genişləndirilməsi ilə bağlı «Fəaliyyətinə xitam verilmiş fiziki şəxsin fəaliyyətinin bərpa edilməsi», «Fiziki şəxsin vergi uçotundan çıxarılması haqqında» ərizələrin elektron şəkildə vergi orqanına təqdim edilməsi məsələsi üzrə texniki tapşırıq əsasında müvafiq proqram təminatı hazırlanıb. Vergilər Nazirliyi tərəfindən vergi ödəyicilərinin gəlir vergisinin və ya mənfəət vergisinin hesabatının verilməsi müddətinin üç ayadək uzadılması barədə müraciətlərinin elektron qaydada qəbul edilməsi imkanı yaradılması istiqamətində texniki və hüquqi tədbirlər görülmüşdür.

Bəyannamələrin və ərizə formalarının vergi orqanının daha təcrübəli əməkdaşları tərəfindən tərtib edilməsi və nəticədə uyğunsuzluq yaranma ehtimalının minimumlaşdırılması üçün «ASAN imzadan istifadə etməklə Çağrı Mərkəzi vasitəsilə vergi ödəyicilərinə əməliyyat xarakterli xidmətlərin göstərilməsi» və «Çağrı Mərkəzi vasitəsilə Sadələşdirilmiş verginin bəyannaməsinin təqdim edilməsi» ilə bağlı xidmət layihələri hazırlanıb.

***Ədalətli rəqabət mühitinin formalaşdırılması istiqamətində tədbirlər görülüb***

2014-cü ildə səyyar vergi yoxlaması başa çatdırılmış 11017 vergi ödəyicisindən 10954-də vergi qanunvericiliyinin pozulması hallarına görə 870,1 milyon manat əlavə vəsait hesablanmışdır ki, bunun 541,8 milyon manatı hesablanmış vergiyə, 328,3 milyon manatı maliyyə sanksiyasına aiddir. Operativ nəzarət strukturlarının fəaliyyəti gücləndirilmiş və nəzarət işlərinin səmərəliliyi yüksəldilmişdir. Əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına əməl olunmasına nəzarət üzrə operativ vergi nəzarəti tədbirləri aparılmış 26204 obyektdən 24563-də qanun pozuntuları aşkar edilərək 11754,4 min manat məbləğində maliyyə sanksiyası tətbiq edilmişdir.

Vergi orqanlarında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin aşkar edilməsi üzrə həyata keçirilmiş operativ vergi nəzarəti tədbirləri nəticəsində sahibkarlıq fəaliyyəti göstərən 2544 şəxsin vergi orqanlarında qeydiyyatdan keçmədiyi aşkar olunmuş, həmin şəxslər barəsində akt tərtib edilərək, 97,0 min manat məbləğində maliyyə sanksiyası tətbiq edilmişdir. Hazırda həmin şəxslərdən 2302 nəfərinin vergi orqanlarında uçota alınmaları təmin edilmiş, digərləri barədə isə müvafiq tədbirlər görülməkdədir. Daxil olmuş məlumat və materiallar üzrə qanunsuz sahibkarlıq faktları ilə bağlı başlamış 53 cinayət işindən 25-nin istintaqı tamamlanaraq məhkəməyə göndərilmiş, digər işlər üzrə isə ibtidai istintaq davam etdirilir.

Aksiz markaları ilə markalanmalı olan məhsulları, belə marka olmadan satış məqsədi ilə saxlama faktları ilə bağlı daxil olmuş materiallar üzrə 6 cinayət işi başlanmışdır. Qanunla müəyyən edilmiş qaydada akkreditasiya olunmadan idman mərc oyunlarının keçirilməsi faktları ilə bağlı daxil olmuş materiallar üzrə 4 cinayət işi başlanmışdır. 1700 obyektdən 852-də 36,0 min manat məbləğində 10,6 min ədəd aksiz markaları ilə markalanmamış və ya saxta aksiz markaları ilə markalanmış tütün məmulatı və alkoqollu içkilər aşkar edilmişdir. Qanun pozuntusu halları ilə əlaqədar inzibati xəta haqqında 859 protokol tərtib edilmiş və materiallar baxılması üçün aidiyyəti məhkəmə orqanlarına göndərilmişdir. «Fərqlənmə nişanı» almadan avtomobil nəqliyyatı ilə sərnişin və yükdaşıma fəaliyyəti ilə məşğul olan şəxslərin aşkar edilməsi üzrə aparılmış operativ nəzarət tədbirləri nəticəsində 2768 şəxsin «Fərqlənmə nişanı» almadan avtomobil nəqliyyatı ilə sərnişin və yükdaşıma fəaliyyəti göstərməsi faktı aşkar edilmiş, həmin şəxslər barəsində 107 min manat məbləğində maliyyə sanksiyası tətbiq edilmişdir. Əmək müqaviləsi bağlamadan işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin yerinə yetirilməsinə cəlb edilməsi hallarının aşkar edilməsi üzrə həmin dövrdə nəzarət aparılmış 3438 obyektdən 1716-da nöqsan aşkar edilmişdir. Nəzarət işləri nəticəsində həmin obyektlərdə 2141 nəfər fiziki şəxsin əmək müqaviləsi hüquqi qüvvəyə minmədən işlərin yerinə yetirilməsinə cəlb edildiyi aşkar olunmuşdur. Qanun pozuntusuna yol vermiş şəxslər barəsində Vergi Məcəlləsinə müvafiq olaraq 2 milyon 63 min manat məbləğində maliyyə sanksiyası tətbiq edilmişdir. Valyuta sərvətlərinin ödəniş vasitəsi kimi qəbul edilməsi hallarının aşkar edilməsi üzrə həyata keçirilmiş operativ vergi nəzarəti nəticəsində 4421 obyektdən 4406-da qanunvericiliyin pozulması faktları aşkar edilmiş, təqsirkar şəxslər barəsində tərtib olunmuş inzibati xəta haqqında protokollara əsasən 256,6 min manat məbləğində inzibati cərimə kəsilmişdir. Valyuta sərvətlərinin ticarət, iaşə və xidmət müəssisələrində qanunvericiliklə müəyyən edilmiş qaydalar pozulmaqla alınıb-satılması və ya dəyişdirilməsi faktlarının aşkar edilməsi üzrə həyata keçirilmiş operativ vergi nəzarəti tədbirlərinin nəticələrinə görə inzibati xəta haqqında 5262 protokol tərtib edilərək, 391,1 min manat məbləğində inzibati cərimə kəsilmişdir. Xüsusi razılıq tələb olunan fəaliyyət növləri ilə belə razılıq olmadan məşğul olan şəxslərin aşkar edilməsi istiqamətində operativ vergi nəzarəti həyata keçirilmiş 7568 obyektin hamısında qanunvericiliyin pozulması faktları aşkar edilmişdir. Qanun pozuntuları barədə tərtib olunmuş materiallar baxılması üçün aidiyyəti dövlət orqanlarına göndərilmişdir.

**AYTƏN**

# Vergi ödəyicilərinə göstərilən e-xidmətlərin əhatəsi genişlənir

*Xəbər verdiyimiz kimi, Vergilər Nazirliyinin Kollegiyasının qərarı ilə «Çağrı Mərkəzi vasitəsilə «Sadələşdirilmiş verginin bəyannaməsi»nin təqdim edilməsi» və «Gəlir və ya mənfəət vergisinin hesabatının verilməsi müddətinin uzadılması barədə ərizələrin qəbulu» elektron xidmətləri üzrə inzibati reqlamentlər təsdiq olunub. Yeni elektron xidmətlərdən VÖEN və gücləndirilmiş elektron imzaya malik şəxslər faydalana bilərlər. Hər iki xidmət www.taxes.gov.az və www.e-gov.az ünvanlarında ödənişsiz göstərilir.*

***Çağrı Mərkəzi vasitəsilə «Sadələşdirilmiş verginin bəyannaməsi»nin təqdim edilməsi***

Bu xidmətdən Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada vergi ödəyicisinin eyniləşdirmə nömrəsini (VÖEN) almış və «Elektron imza və elektron sənəd haqqında» Qanununun müddəalarına əsasən gücləndirilmiş elektron imza əldə etmiş şəxslər istifadə edə bilərlər. Çağrı Mərkəzi vasitəsilə «Sadələşdirilmiş verginin bəyannaməsi»nin təqdim edilməsi e-xidməti gücləndirilmiş elektron imzası olan vergi ödəyicisinin Vergilər Nazirliyinin Çağrı Mərkəzinə müraciəti əsasında Çağrı Mərkəzinin təmsilçisi tərəfindən onun təqdim etdiyi məlumatlar əsasında 1-ci, 2-ci və 3-cü rüblər üzrə «Sadələşdirilmiş verginin bəyannaməsi»nin hazırlanması və elektron qaydada göndərilməsini əhatə edir. Elektron xidmətin icra




müddəti icraçının tələb olunan məlumatları daxil etməsindən, istifadəçinin gücləndirilmiş elektron imza vasitəsilə əməliyyatları təsdiqləməsindən və əməliyyatların informasiya sistemi tərəfindən emalı müddətindən asılıdır.

Xidmətin istifadəçisi olan vergi ödəyicisi bu xidmətdən istifadə üçün Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzləri tərəfindən verilmiş gücləndirilmiş elektron imzaya və ondan istifadəyə imkan verən avadanlığa malik olmalıdır. Bundan sonra xidmətdən istifadə etmək istəyən istifadəçi Vergilər Nazirliyinin Çağrı Mərkəzinə zəng edir. İstifadəçi ondan soruşulan gücləndirilmiş elektron imza mobil nömrəsini və istifadəçiyə aid İD məlumatını bildirir. Daha sonra istifadəçi tərəfindən hansı hesabat dövrü üzrə bəyannamə təqdim etmək istədiyi bildirilir. İstifadəçiyə bəyannamə üzrə yaranacaq vergi öhdəlikləri barədə SMS göndərilir və istifadəçi SMS-lə tanış olub rəyini Çağrı Mərkəzinin təmsilçisinə bildirir. İstifadəçi razılığını bildirdikdən sonra yoxlama kodunu təsdiqləyir və gücləndirilmiş elektron imza PİN 2 kodunu daxil etməklə bəyannaməni imzalayır. Əməliyyat başa çatdıqdan sonra istifadəçinin «Onlayn kargüzarlıq»səhifəsinə əməliyyat tarixçəsi barədə məlumat göndərilir.

«Sadələşdirilmiş vergi bəyannaməsi» vergi ödəyicisi tərəfindən təsdiqləndiyi andan sistemdə qeydiyyata alınmış olur və həmin bəyannamə üzrə 16 rəqəmli qeydiyyat nömrəsi əks olunmuş bildiriş yaradılır.

İstifadəçi gücləndirilmiş elektron imza nömrəsini və ya İD nömrəsini səhv bildirdikdə, mobil nömrədə gücləndirilmiş elektron imza xidməti aktiv olmadıqda, müraciət etmiş şəxsin gücləndirilmiş elektron imza sahibi olmadığı müəyyən edildikdə xidmətin göstərilməsindən imtina edilir. Bu hallarda da xidmətdən istifadədən imtina edilir:

- Səyyar vergi yoxlaması ilə əhatə edilmiş dövr üzrə bəyannamə verilməsi istənildikdə;
- 4-cü rüb üzrə bəyannamə verilməsi istənildikdə;
- vergi ödəyicisinin sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququnu itirdikdə;
- eyni zamanda vergi ödəyicisi olan hüquqi şəxsin ləğv edilməsi və ya fərdi sahibkarın fəaliyyətinə xitam verilməsi ilə əlaqədar ləğv barədə bəyannamənin verilməsi istənildikdə;
- mükəlləfiyyət uyğun olmadlıqda;
- bəyannaməyə qeyd edilməli olan məlumatlar dəqiq bildirilmədikdə;
- «Sadələşdirilmiş verginin bəyannaməsi»nin dövrü səhv göstərildikdə.

İmtina üçün əsas olmadıqda «Sadələşdirilmiş verginin bəyannaməsi» vergi orqanı tərəfindən hazırlanır və təsdiq olunması üçün vergi ödəyicisinə məlumat göndərilir. Xidmətin yerinə yetirilməsi nəticəsində vergi ödəyicisinin «Sadələşdirilmiş verginin bəyannaməsi» təsdiqləndikdən sonra təqdim edilir və bu barədə sistemdə bildiriş yaradılır.

***Gəlir və ya mənfəət vergisinin hesabatının verilməsi müddətinin uzadılması barədə ərizələrin qəbulu***

Bu xidmət Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada gəlir və ya mənfəət vergisinin hesabatını vermək öhdəliyi olan vergi ödəyiciləri tərəfindən «Gəlir və ya mənfəət vergisinin hesabatının verilməsi müddətinin uzadılması barədə» ərizə tərtib edilərək vergi orqanına təqdim olunmasını əhatə edir. Xidmətin istifadəçiləri gəlir və ya mənfəət vergisinin hesabatını vermək öhdəliyi olan vergi ödəyiciləridir. Bu xidmətin göstərilməsi üçün heç bir sənəd tələb olunmur.

Xidmətin istifadəçilərinin Vergilər Nazirliyi tərəfindən verilmiş şifrə, parolu və ya gücləndirilmiş elektron imzası olmalıdır. Bunlardan istifadə etməklə sistemə daxil olduqda istifadəçiyə təklif olunan ərizə formasını tərtib etmək və təsdiq etmək imkanı yaranır. Ərizə iş vaxtı başa çatdıqdan sonra və ya qeyri-iş günündə sistemə daxil edilmiş olduqda onun icrası həmin gündən sonrakı ilk iş gününün əvvəlində həyata keçirilir.

«Gəlir və ya mənfəət vergisinin hesabatının verilməsi müddətinin uzadılması barədə» ərizənin vergi orqanına təqdim edilməsi İnternet Vergi İdarəsi portalının «Onlayn kargüzarlıq və e-VHF» bölümü üzərindən aparılır. Bu məqsədlə «Yeni müraciət» düyməsi sıxılır və açılan pəncərədə «Kimə» siyahısından - Vergilər Nazirliyi, «Müraciətin növü» siyahısından - Ərizə, «Sənədin növü» siyahısından - «Gəlir və ya mənfəət vergisinin hesabatının verilməsi müddətinin uzadılması barədə ərizə» seçilir. Gəlir və ya mənfəət vergisinin hesabatının verilməsi müddətinin uzadılması tarixləri vergi ödəyicisi tərəfindən interaktiv şəkildə ərizəyə daxil edilir və daha sonra istifadəçi kodu, parol, şifrə vasitəsilə sistemə daxil olmuş vergi ödəyiciləri «Qəbul» düyməsini, gücləndirilmiş elektron imza vasitəsi ilə sistemə daxil olmuş vergi ödəyiciləri isə «İmzala və göndər» düyməsini sıxırlar. «Qəbul» düyməsi və ya «İmzala və göndər» düyməsi sıxıldıqdan sonra ərizənin məzmunu sistem tərəfindən avtomatik olaraq formalaşdırılaraq aidiyyəti üzrə baxılması üçün vergi orqanına göndərilir.

«Gəlir və ya mənfəət vergisinin hesabatının verilməsi müddətinin uzadılması barədə ərizə» sistemə daxil edilərək istifadəçi tərəfindən təsdiqləndiyi andan sistemdə qeydiyyata alınmış olur və ona 16 rəqəmli qeydiyyat nömrəsi əks olunmuş bildiriş göndərilir.

Vergi ödəyicisi tərəfindən təqdim olunan «Gəlir və ya mənfəət vergisinin hesabatının verilməsi müddətinin uzadılması barədə ərizə» gəlir və ya mənfəət vergisi hesabatının təqdim edilməsi üçün Vergi Məcəlləsi ilə nəzərdə tutulmuş müddətdən sonra təqdim olunduğu halda imtina edilir və sistem tərəfindən bu barədə istifadəçinin ekranına müvafiq mesajlar verilir. İmtina üçün əsas olmadıqda ərizə qəbul edilir.

**A.NƏBİYEVA**

# «Məlumat mübadilə sistemi üzrə texniki təminat sənədi» imzalanıb

Avqustun 24-də Tbilisidə Gürcüstan Respublikası Maliyyə Nazirliyinin Gəlirlər Xidmətində Azərbaycan və Gürcüstan gömrük xidmətlərinin nümayəndə heyətlərinin görüşü olub. Görüşdə Azərbaycan və Gürcüstan arasında iqtisadi, siyasi və mədəni əlaqələrin hazırkı durumu yüksək qiymətləndirilib, iqtisadi əlaqələrdə gömrük orqanlarının da üzərinə mühüm vəzifələrin düşdüyü qeyd olunub. İki ölkənin müvafiq qurumları arasında qarşılıqlı əməkdaşlığın daha da genişləndirilməsinin zəruriliyi və təcrübə mübadiləsinin ümumi işə faydası vurğulanıb.

Sonra Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Gürcüstan Respublikası Maliyyə Nazirliyinin Gəlirlər Xidməti arasında «Məlumat mübadilə sistemi üzrə texniki təminat sənədi» imzalanıb.

Sənədi Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Fəaliyyətin Qiymətləndirilməsi və İnkişaf Proqramları Baş İdarəsinin rəisi İqbal Babayev və Gürcüstan Respublikası Maliyyə Nazirliyinin Gəlirlər Xidməti İnformasiya Texnologiyaları Mərkəzi sədrinin müavini Givi Murvanidze imzalayıblar.

Azərbaycan və Gürcüstan hökumətləri arasındakı «Gömrük işi üzrə inzibati yardım» müqaviləsinə əsasən imzalanan sənədin məqsədi iki ölkə arasında ticarətin asanlaşdırılmasına töhfə vermək, mallar və nəqliyyat vasitələri barədə ilkin məlumat mübadiləsinin həyata keçirilməsini təmin etməkdir.

# Milanda Azərbaycanın investisiya imkanları müzakirə olunub

Dünən «Milan Expo 2015» beynəlxalq sərgisi çərçivəsində Azərbaycan İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) və İtaliya-Azərbaycan Ticarət İnstitutunun (İTAZERCOM) birgə təşkilatçılığı ilə «Azərbaycana investisiya yatırımları: biznes mühiti və imkanlar» mövzusunda tədbir keçirilib.

Tədbirdə informasiya və kommunikasiya texnologiyaları, aqrokimya, mexanika, ətraf mühit, sənaye, tikinti və digər sahələrdə Azərbaycanın investisiya imkanları müzakirə olunub. Qafqaz ölkəsinin biznes imkanlarının bu formatda təqdim olunduğu tədbir İtaliyada ilk dəfə keçirilib. Tədbirdə AZPROMO-nun, Azərbaycan İnvestisiya Şirkətinin, Sumqayıt Kimya Sənaye Parkının, «Təmiz Şəhər» Açıq Səhmdar Cəmiyyətinin və digər müxtəlif özəl şirkətlərin nümayəndələri iştirak ediblər.

# Turizm sektorunda qiymət siyasətinə yenidən baxmağa ehtiyac var



*Azərbaycan iqtisadiyyatında qeyri-neft sektorunun payının artmasında turizmin inkişaf etdirilməsinin xüsusi əhəmiyyəti və yeri var. Ölkəmizdə bu sahənin nailiyyətləri ilə yanaşı, aktual problemləri də var. Müsahibimiz Azərbaycan Turizm Assosiasiyasının (ATA) baş katibi Müzəffər Ağakərimovdur.*

***- Azərbaycan Turizm Assosiasiyasının bu sahəni tənzimləyən dövlət qurumları və turizm şirkətləri ilə əməkdaşlığı hansı səviyyədədir?***

- ATA 2009-cu ildə yaranıb. Təşkilatımız Mədəniyyət və Turizm Nazirliyinin təşkil etdiyi monitorinqlərə qoşularaq turizm siyasətinin həyata keçirilməsində yaxından iştirak edir, bu sahədə vəziyyəti qiymətləndirir və şirkətlərə öz tövsiyələrini verir. Hazırda ölkəmizdə 300-ə yaxın turizm şirkəti fəaliyyət göstərir ki, bunların hamısı eyni səviyyədə deyil. Şirkətlərin kadr məsələlərinin həlli, dövlət qurumları ilə meydana çıxan çətinliklərin aradan qaldırılması, treninqlərin, infoturların təşkili, turizm şirkətləri ilə birgə yeni ekskursiya və turist marşrutları layihələrinin işlənib hazırlanması və həyata keçirilməsi də fəaliyyətimizin əsas istiqamətlərindəndir.

***- Birinci Avropa Oyunlarını Azərbaycanın turizm sektoruna təsirləri baxımından necə qiymətləndirmək olar?***

- Bu tədbiri Azərbaycan turizm sektorunun inkişafında yeni bir mərhələ kimi səciyyələndirmək mümkündür. Ölkəmizdə bu miqyasda mötəbər tədbirin keçirilməsi turizm sahəsində çalışan kadrların peşəkarlığının artmasına müsbət təsir etdi, şirkətlər beynəlxalq təcrübə qazandılar. Turist və idmançılar Azərbaycanın mədəniyyəti və musiqisi, milli mətbəxi haqqında zəngin bilgilər əldə etdilər ki, bu da turizm sektoru üçün mühüm hadisədir. ATA ilə əməkdaşlıqda turizm şirkətləri xarici qonaqlar üçün yeni turizm və ekskursiya marşrutları işləyib hazırladılar. İlkin qiymətləndirmələr göstərir ki, bu amil turizm xidmətlərinin çeşidinə və keyfiyyətinə öz təsirini göstərib. Xüsusilə də Mingəçevirdə keçirilən idman yarışları ətraf rayonların turizm potensialının üzə çıxmasına təkan verdi.

Əminəm ki, Avropa Oyunları gələcəkdə istirahət üçün Azərbaycanı seçəcək turistlərin sayının artmasına stimul verəcək.

***- Azərbaycan Prezidenti ölkəmizin turizm sektorunda qiymətlərin baha olduğunu, bunun turizmə marağın azalmasına təsir göstərdiyini bildirib və qiymətlərin aşağı salınması üçün aidiyyəti qurumlara müvafiq tapşırıqlar verib. ATA bununla bağlı hansı təklif və tövsiyələri hazırlayır?***

- Bakı şəhərində fəaliyyət göstərən 60-dan çox oteldə qiymət siyasəti ilə əlaqədar monitorinq keçirmişik. Yaxın günlərdə turizm şirkətləri ilə birgə qiymət siyasətinə aid toplantı keçirilməsi planlaşdırılıb. Burada hər bir tərəfin rəy və təklifləri əsasında yeni fəaliyyət planının hazırlanması nəzərdə tutulur.

Assosiasiyamız Bakı şəhərində və regionlarda 2-3 ulduzlu otellərin və hostellərin ( daha çox çarpayıları olan və məhdud xidmət göstərən mehmanxana tipli turizm obyektləri) inşasına start verilməsini də təklif edib. Hesab edirik ki, hazırda turizmin inkişafı üçün hostellərin yaradılmasının vaxtı çatıb. Avropa və Asiyada bu tipli turizm müəssisələri özünü daha yaxşı doğruldur və getdikcə populyarlaşır.

***- Monitorinqlərin nəticələri necə mənzərə yaradır: bu gün Azərbaycana turistlər daha çox hansı ölkələrdən gəlir və ya ölkəmizdən ən çox hansı ölkələrə turist axını var?***

- Azərbaycana Rusiya, İran, Qazaxıstan,Türkiyə,Yaponiya və Koreyadan daha çox turist gəlir və onların arasında istirahət məqsədi ilə gələnlər üstünlük təşkil edir. Fransa, İspaniya, Birləşmiş Ərəb Əmirlikləri, Tailand, Malayziya, İran, Çexiya və digər ölkələrdən də hər il turistlər gəlir. Yaponiya və Cənubi Koreyadan gələn turistlər gəzintiyə - ekskursiyaya daha çox üstünlük verirlər, ölkəmizin tarixi abidələri, adət-ənənələrimiz, mətbəximiz, musiqimizlə tanış olurlar. Yeri gəlmişkən, bu faktor Birinci Avropa Oyunları zamanı da müşahidə olundu. Bizim ölkədən isə sağlamlıq turizmi ilə əlaqədar gedənlər çoxdur. Azərbaycan vətəndaşları Rusiya,Ukrayna və İrana daha çox üz tuturlar.

***- Xarici turist axınını artırmaq üçün hansı tədbirlərin tətbiqi zəruridir?***

- Xarici ölkələrdən Azərbaycana daha çox turist cəlb etmək üçün təyyarə biletlərinin və otellərin qiymətləri rəqabətə əsaslanmalıdır. Otellərin qiymətləri göstərilən xidmətlərin səviyyəsinə uyğun olmalıdır. Tur paketlər, əsasən, nəqliyyat, otel, restoran, ekskursiyalar və digər sahələrdə kompleks islahatları əhatə edir, yəni bu istiqamətdə bütün tədbirlərin görülməsi qaçılmazdır. Bölgələrdəki otellərdə sanitar-gigiyenik şərtlər də beynəlxalq standartlarla ayaqlaşmalıdır.

***- Azərbaycanın turizm agentlərinə beynalxalq ulduz verilməsi sistemi nə vaxt tətbiq ediləcək?***

- Azərbaycan turizm şirkətlərinə, otellər kimi ulduz sisteminin tətbiqi çox yaxşı olardı. Bu, turizm şirkətlərinin motivasiyası üçün mühüm rol oynaya bilər. Lakin bu məsələ bütün turizm şirkətləri ilə müzakirə olunub,yekdil qərara gəlinməlidir. Ən əsası isə bu sistemin mexanizmi işlənib hazırlanmalıdır.

***- ATA xarici ölkələrin müvafiq qurumları və turizm agentləri ilə əməkdaşlıq sahəsində hansı işləri görür?***

- ATA Ümumdünya Turizm Təşkilatına assosiativ üzv kimi qəbul olunub, ATA-nın sədri ÜTT-yə qoşulmuş üzvlər şurasının Avropa üzrə vitse-prezidenti seçilib. Təşkilat bir sıra xarici ölkələr ilə əməkdaşlıq memorandumları imzalamışdır. Bir çox xarici turizm qurumları ilə, o cümlədən İslam İqtisadi Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası ilə turizm sahəsində əməkdaşlıq edir, Amerikanın Qonaqpərvərlik İnstitutu ilə kadrların hazırlanması sahəsində birgə fəaliyyətimiz var.

Azərbaycanın turizm şirkətləri, demək olar ki,bütün beynəlxalq turizm sərgilərində iştirak edir. Burada başlıca məqsəd ölkəmizə daha çox turist cəlb etməkdir.

**Elbrus CƏFƏRLİ**

## V t nda ›m mur m nasib tl rind s m r li xidm t

Konsaltinq və audit sahəsində peşəkar xidmətlər təklif edən beynəlxalq şirkətlər şəbəkəsi «Pricewaterhouse Coopers» (PwC) tərəfindən aparılmış «Dövlət və bələdiyyə xidmətlərinin göstərilməsi mərkəzinin müqayisəli təhlili» mövzusunda araşdırma aşağıdakı şəhərləri əhatə edib: Moskva (Rusiya), Madrid (İspaniya), San-Paulo (Braziliya), Berlin (Almaniya), London (İngiltərə), Seul (Cənubi Koreya), Sidney (Avstraliya), Amsterdam (Niderland), Toronto (Kanada), Afina (Yunanıstan), Astana (Qazaxıstan), Budapeşt (Macarıstan), Banqalor (Hindistan), Oklend (Yeni Zelandiya), Helsinki (Finlandiya), Stokholm (İsveç), Santyaqo (Çili), Bakı (Azərbaycan).

Araşdırmaya əsasən, dünyanın yalnız bir neçə şəhərində vətəndaşlar «bir pənəcərə» sistemi ilə rahat şəkildə və vaxt itirmədən istədikləri sənədləri əldə edə bilirlər.

Dünyanın 18 iri şəhərlərində yerləşən və dövlət xidmətlərinin «bir pəncərə» prinsipi ilə göstərildiyi çoxfunksiyalı mərkəzlərin işi təhlil edilib. Qiymətləndirmə dörd meyar: xidmətlərin əlyetərliyi, rahatlıq, növbələrin idarə olunması və əks-əlaqə üzrə aparılıb. Vətəndaşlarla dövlət qurumları arasında əlaqələri asanlaşdırmaq məqsədi ilə son vaxtlar Bakı, Moskva və San-Pauloda yaradılan xidmətlər digər ölkələrdəki analoji qurumlardan üstün olub.

Azərbaycanda yaradılmış «ASAN xidmət» dövlət tərəfindən təqdim edilən sənədlərin tez, rahat və keyfiyyətli formada vətəndaşlar tərəfindən alması baxımından daha yüksək qiymətləndirilib. Bundan başqa, qaynar xətt fəaliyyəti və vətəndaşların internet vasitəsi ilə müraciəti üzrə araşdırmada da «ASAN xidmət» digər ölkələrdə fəaliyyət göstərən «bir pəncərə» sistemlərindən öndə olub. Telefon qaynar xətti böyük şəhərlərin, demək olar ki, hamısında mövcuddur, lakin operativ əks-əlaqə pultları yalnız Sidney, Moskva, Helsinki və Bakıda fəaliyyət göstərir, mobil əlavə vasitəsilə fikir bildirmək imkanı isə Moskva, Berlin və Madriddə mövcuddur.

Bakıda fəaliyyət göstərən mərkəzlər daim internetə açıq olan kompüterlərlə təchiz edilib. Burada vətəndaşların hər növ elektron xidmətlərdən yararlanmasına şərait yaradılıb. Araşdırma zamanı qurumların operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyətlilik, etik davranış qaydalarına nəzarət və rahatlığı da nəzərə alınıb.

**Fəxriyyə İKRAMQIZI**

# İcbari tibbi sığortanın tətbiqinə hazırlıq görülür



*İcbari tibbi sığorta (İTS) vətəndaşların sağlamlığının sosial müdafiəsinin dövlət sistemidir. Azərbaycanda sığortanın bu növünün tətbiqi üçün qanunvericilik bazası olsa da, hələlik onun tətbiq mexanizmi işə salınmayıb.*

«İTS-nin məqsədi tibbi yardım göstərilməsini tələb edən hallar yarandıqda vətəndaşın icbari tibbi sığorta fondlarında yığılan vəsaiti hesabına tibbi yardım almasını təmin etməkdir. Bundan əlavə, İTS səhiyyənin maliyyələşdirilməsinin alternativ və effektiv yollarından biridir. Onun tətbiqindən sonra tibb müəssisələrinə ödənişlərin böyük bir qismi sığorta fondlarından daxil olacaq. Bunun nəticəsində sığorta ödənişi uğrunda tibb müəssisələri arasında yaranacaq bazar rəqabəti tibbi xidmətlərin keyfiyyətinin artmasına gətirib çıxaracaq», - sığorta eksperti Xəyal Məmmədxanlı bildirmişdir.

İTS sistemi əhalinin sağlamlığının mühafizəsinə, sağlam cəmiyyətin formalaşmasına və nəticə olaraq sosial rifahın yüksəlməsinə xidmət edir. Bu sığorta sayəsində ailə büdcəsini və maddi durumunu nəzərə alaraq illərlə həkimə getməyə imkanı olmayan insanlar rahatlıqla həkimə müraciət edir və vaxtında müalicə ala bilir. İTS səhiyyədə həkim-xəstə münasibətlərini şəffaflaşdırır, rüşvət və korrupsiya hallarını əhəmiyyətli dərəcədə azaldır.

Qanuna əsasən, İTS sisteminin maliyyə vəsaitləri dövlət büdcəsindən, sığortalının (mülkiyyət formasından asılı olmayaraq hüquqi şəxslərin və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin) ödəmələri, icbari tibbi sığorta haqlarının ödəmə qaydasının pozulması hallarında tətbiq olunan cərimə və dəbbə pulu, qanunvericilikdə qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir. Bu o deməkdir ki, işləməyən vətəndaşlar üçün sığorta haqları dövlət büdcəsindən sığorta fondlarına, ordan isə tibb müəssisələrinə ödənilir. İşləyən vətəndaşlara görə sığorta müqavilələri isə müəssisə ilə sığorta şirkətləri arasında bağlanır.

Tibbi sığorta haqqında qanunda sığortalılar: işləməyən vətəndaşlar üçün müvafiq icra hakimiyyəti orqanları və müvafiq sosial proqramlar çərçivəsində yerli özünüidarə orqanları; işləyən vətəndaşlar üçünsə mülkiyyət formasından asılı olmayaraq bütün hüquqi şəxslər və qanunvericilikdə müəyyən olunmuş qaydada sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdir.

İTS cinsindən, yaşından, yaşayış yerindən və sosial statusundan asılı olmayaraq bütün Azərbaycan vətəndaşlarına icbari tibbi sığorta fondunun hesabına İcbari Tibbi Sığorta proqramında nəzərdə tutulan məbləğdə və qaydada tibbi yardım almaq üçün bərabər imkanlar yaradır.

X. Məmmədxanlının dediyinə görə, İTS-nin təminatı və əhatə dairəsi ölkədən ölkəyə fərqli olsa da bura, adətən, təcili və təxirəsalınmaz tibbi yardım, eləcə də xəstəliyin diaqnozu daxildir.

İTS proqramı sosial əhəmiyyətli xəstəlikləri (QİÇS, vərəm və s.) əhatə etmir: «Bu xəstəliklərin müalicəsi üçün dövlət büdcəsindən məqsədli vəsaitlər ayrılır. Təcili tibbi yardım xidmətinin fəaliyyəti, güzəştli dərman təminatı, protezləşmə, bəzi hallarda isə bahalı tibbi əməliyyatlar (məsələn: açıq ürək əməliyyatı,hemodializ, kəskin leykoz zamanı kimyaterapiya, beyin iliyi transplantasiyası, böyrək köçürülməsi, şüa müalicəsi, kimya terapiya, yeni doğulanların reanimasiyası) da dövlət büdcəsindən maliyyələşdirilir.

İTS şəhadətnaməsi vətəndaşın xeyrinə icbari sığorta müqaviləsinin bağlanmasını təsdiq edən sənəddir. Sığorta şəhadətnaməsində şəhadətnamənin sahibi, sığorta müqaviləsinin nömrəsi və müddəti, sığorta şirkətinin adı, müqavilənin ərazisi, əlaqə nömrələri və s. göstərilir. Şəhadətnamə vətəndaşa icbari tibbi sığorta proqramına əsasən tibb müəssisəsində ödənişsiz tibbi yardım almaq hüququ verən sənəddir. Adətən 1 il müddətinə verilən sığorta şəhadətnaməsi müddət sona çatdıqda yenilənir.

Milli Məclisin Sosial-siyasət komitəsinin sədri Hadı Rəcəbli deyib ki, yaxın vaxtlarda Azərbaycanda icbari tibbi sığortanın tətbiqinə başlanılacaq. Onun sözlərinə görə, icbari tibbi sığortanın tətbiqi ilə bağlı sistemli iş aparılır. Hazırda bir neçə ölkənin təcrübəsi öyrənilir. Millət vəkili qeyd edib ki, İTS-nin tətbiqindən sonra səhiyyə sisteminin maliyyələşməsi tamamilə yenilənəcək.

**FƏXRİYYƏ**




## RƏQƏMLƏRİN DİLİ İLƏ

- 2015-ci ilin yanvar-iyul aylarında əhalinin gəlirləri **6,4%** artaraq **23,6 milyard manata** çatmışdır. Gəlirlərin **74,1%-i** son istehlaka, **9,3%-i** vergilər, sosial sığorta və könüllü üzvlük haqlarının ödənilməsinə, **14%-i** əmanətlərin və kapitalın artırılmasına, **2,6%-i** kreditlər üzrə faizlərin ödənilməsinə sərf edilmişdir.
- Əhalinin banklardakı əmanətlərinin məbləği ötən ilin yeddi ayı ilə müqayisədə **13,9%** artaraq 2015-ci il iyul ayının 1-nə **7,7 milyard manata** çatmışdır.
- İlin ilk yeddi ayı ərzində informasiya və rabitə müəssisələri əhaliyə, müəssisə və təşkilatlara **937,2 milyon manatlıq** xidmət göstərmişlər. 2014-cü ilin eyni dövrü ilə müqayisədə informasiya və rabitə xidmətlərinin həcmi **10,7%** artmış, xidmətlərin **72,6%-i** əhaliyə göstərilmiş, əldə edilmiş gəlirin **81%-i** qeyri-dövlət sektorunun payına düşmüşdür.
- Ölkədə fəaliyyət göstərən müəssisə, təşkilat və fiziki şəxslər tərəfindən 2015-ci ilin yanvar-iyul aylarında **32,1 milyard manatlıq** və ya ötən ilin müvafiq dövründəkindən **5,6%** çox ümumi daxili məhsul istehsal edilmişdir.

Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

## MMC və ya səhmdar cəmiyyətinin yaradılması

***Sahibkarlıq fəaliyyətimi məhdud məsuliyyətli cəmiyyət və ya səhmdar cəmiyyəti yaratmaqla həyata keçirmək istəyirəm. Kimlər MMC və ya səhmdar cəmiyyəti yarada bilər və bunun üçün minimum nizamnamə kapitalı nə qədərdir?***

Müxtəlif təşkilati-hüquqi formalara malik hüquqi şəxslərin nizamnamə kapitalının formalaşdırılması qaydaları, eləcə də kommersiya hüquqi şəxsi təsis edə biləcək şəxslərin dairəsi Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə tənzimlənir.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin (bundan sonra - Məcəllə) 64.1-ci maddəsinə əsasən, təsərrüfat cəmiyyətləri təsisçilərinin (iştirakçılarının) paylarına bölünmüş nizamnamə (şərikli) kapitalı olan kommersiya təşkilatlarıdır. Təsisçilərin (iştirakçıların) maya qoyuluşları hesabına yaranmış əmlak, habelə təsərrüfat ortaqlığının və ya cəmiyyətinin öz fəaliyyəti prosesində istehsal və əldə etdiyi əmlak mülkiyyət hüququ ilə ona mənsubdur.

Məcəllənin tələblərinə görə, təsərrüfat cəmiyyətləri məhdud və ya əlavə məsuliyyətli cəmiyyət və ya səhmdar cəmiyyəti formasında yaradıla bilər (maddə 64.3) və təsərrüfat cəmiyyətlərinin iştirakçılarının maya qoyanları fiziki və hüquqi şəxslər ola bilərlər (maddə 64.5).

Dövlət orqanları və yerli özünüidarə orqanları təsərrüfat cəmiyyətlərinin iştirakçıları kimi çıxış edə bilməzlər (maddə 64.6). Təsərrüfat cəmiyyətləri, Məcəllədə nəzərdə tutulan hallar istisna olmaqla, başqa təsərrüfat ortaqlıqlarının və cəmiyyətlərinin təsisçiləri (iştirakçıları) ola bilərlər.

Nizamnamə kapitalı hüquqi şəxs tərəfindən gələcəkdə gəlir əldə etmək məqsədi ilə həyata keçirilən fəaliyyət üçün ilkin kapital olmaqla təşkilatın maliyyə vəziyyəti barədə təsəvvür yaratmağa imkan verən göstəricilərdən biridir. Eyni zamanda, nizamnamə kapitalı hüquqi şəxsin öhdəliklərinin icrasının təminatı baxımından lazım olan vəsaitlərin formalaşma mənbəyidir.

Məcəllədə qeyd olunub ki, təsərrüfat cəmiyyətinin əmlakına qoyulan maya puldan, qiymətli kağızlardan, başqa əmlakdan və ya əmlak hüquqlarından və ya pul dəyəri olan digər hüquqlardan ibarət ola bilər (maddə 64.7).

Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalı onun iştirakçılarının mayalarının dəyərindən təşkil olunur. Cəmiyyətin nizamnamə kapitalı onun kreditorlarının mənafelərinə təminat verən əmlakının minimum miqdarını müəyyənləşdirir. Cəmiyyətin nizamnamə kapitalının miqdarı onun kreditorlarının mənafelərinə təminat verən məbləğdən az ola bilməz. Məhdud məsuliyyətli cəmiyyətin nizamnaməsində nizamnamə kapitalının müəyyən müddətə ödənilməsi nəzərdə tutulmayıbsa, cəmiyyət dövlət qeydiyyatına alınanadək təsisçilər nizamnamə kapitalını tamamilə ödəməyə borcludurlar. Məhdud məsuliyyətli cəmiyyətin nizamnaməsində nizamnamə kapitalının ödənilməsi müddətlə şərtləndirildiyi halda, bu müddət üç aydan çox ola bilməz. Məhdud məsuliyyətli cəmiyyət barədə qeyd olunan müddəalar əlavə məsuliyyətli cəmiyyətlərə də tətbiq edilir (maddə 90).

Məcəllənin 103-cü maddəsinə əsasən, səhmdar cəmiyyətinin nizamnamə kapitalı cəmiyyətin səhmdarlar tərəfindən əldə edilmiş səhmlərinin nominal dəyərindən təşkil olunur. Səhmdar cəmiyyətinin nizamnamə kapitalına qoyuluşların formaları Məcəllə və təsisçilər arasında bağlanmış müqavilə ilə müəyyən edilir. Səhmdar cəmiyyətinin nizamnaməsinə qoyuluşlar pul vəsaitləri, tam ödənilmiş qiymətli kağızlar, digər əmlak, o cümlədən əmlak hüquqları və pul dəyəri olan digər hüquqlar ola bilər. Səhmdar cəmiyyətinin yaradılması zamanı pul olmayan əmlakın dəyəri təsis yığıncağının qərarı ilə, səhmdar cəmiyyəti yaradıldıqdan sonra isə - səhmdar cəmiyyətinin səhmdarlarının ümumi yığıncağının qərarı ilə müəyyən edilir. Cəmiyyətin nizamnamə kapitalı cəmiyyətin kreditorlarının mənafelərinə təminat verən əmlakının minimum miqdarını müəyyənləşdirir. Bu, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş miqdardan az ola bilməz. Səhmdar cəmiyyətinin təsisçiləri cəmiyyət qeydə alınanadək nizamnamə kapitalını tamamilə ödəməyə borcludurlar. Səhmdar cəmiyyəti təsis edilərkən onun bütün səhmləri təsisçilər arasında bölünməlidir. «Azərbaycan Respublikası Mülki Məcəlləsinin qəbul edilməsindən irəli gələn bəzi məsələlərin həll edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 dekabr 2000-ci il tarixli 224 nömrəli Qərarı ilə səhmdar cəmiyyətin nizamnamə kapitalının minimum həddi - qapalı səhmdar cəmiyyəti üçün 2000 AZN, açıq səhmdar cəmiyyəti üçün 4000 AZN məbləğində müəyyən edilmişdir.

Məhdud məsuliyyətli və əlavə məsuliyyətli cəmiyyətlər üçün nizamnamə kapitalının minimum məbləği müəyyən edilməmişdir.

# Xidmət sahələrinin davamlı inkişafında vergi amilinin rolu

Müasir dünya iqtisadiyyatının səciyyəvi cəhətlərindən biri makroiqtisadi göstəricilərdə xidmət sahələrinin xüsusi çəkisinin artmasıdır. Mütəxəssislərin fikrincə bunun iki başlıca səbəbi vardır: birincisi, insanların gəlirinin artması fiziki əmtəələrlə bərabər, xidmətlərə xərclənən pulların da artmasına imkan verir. İkinci səbəb isə İKT-nin inkişafının xidmət sektorunun imkanlarını genişləndirməsi və xidmət sektorunun iqtisadi dəyərini artırmasıdır.

Təcrübə göstərir ki, hələ XX əsrin ikinci yarısından etibarən inkişaf etmiş ölkələrdə xidmət sektoru istehsal sektorunu geridə qoymağa başlamışdır. 1980-ci illərdən etibarən isə inkişaf etməkdə olan ölkələrdə baş verən struktur dəyişikliyi xidmət sektorunun həm ümumi iqtisadiyyatda payının, həm də bazar həcminin sürətlə artmasına gətirib çıxarmışdır. Bunun nəticəsi olaraq hazırda dünyanın əksər ölkələrində ümumi daxili məhsulun (ÜDM) formalaşmasında və məşğulluğun təmin edilməsində xidmət sektoru daha böyük paya sahibdir. Məsələn, ÜDM-in Amerikada 74%-i, Yaponiyada 59%-i, Almaniyada 69,1%-i, Türkiyədə 66%-i, Fransada 77,3%-i, Rusiyada 58,7%-i, Ukraynada 68,4%-i, Qazaxıstanda 55%-i xidmət sahələrinin payına düşür. Estoniyanın ümumdaxili məhsulunun 71%-ni, Litvanınsa 62%-ni xidmət sektoru formalaşdırır. Latviyada xidmət sferasının aparıcı üzvü olan nəqliyyat sektoru, xüsusilə tranzit daşımalar büdcə gəlirlərinin 30%-ni, ümumi ixracın isə 27%-ni təşkil edir.

AMEA İqtisadiyyat İnstitutunun şöbə müdiri, iqtisad üzrə fəlsəfə doktoru, dosent Aqil Əsədov bildirir ki, xidmət sektorunun bazar payının artması, əslində, iqtisadiyyatın şaxələnməsini və sahələr üzrə ixtisaslaşmasını təmin edir: «Klassik iqtisadiyyatda sənayeləşmə, fiziki məhsul istehsalı iqtisadiyyatın qan damarı, istehsal edilən əmtəəyə sahib olmaq zənginlik əlaməti sayılırdısa, müasir iqtisadiyyatda eyni fikirlər xidmət sektoru haqqında deyilir. Dövrümüzdə xidmət sektoru perspektiv vəd edən sahə kimi tanınır və dünya iqtisadiyyatının gəlirli sahəsi kimi böyük cəlbediciliyə malikdir.

Müxtəlif sahələri əhatə edən xidmət sektoru həm də əsas inkişaf və rifah göstəricilərindən sayılır. Təsadüfi deyildir ki, Dünya Bankı bir neçə il öncə 132 ölkənin rifah səviyyəsinə görə reytinqini müəyyənləşdirən zaman sosial həyatla xidmət sektorunun səviyyəsi arasında əlaqənin olduğu bir daha təsdiqini tapıb. Məlum olub ki, xidmət sektorunda əmək qabiliyyətli əhalinin 60-75%-i çalışır. Xidmət sektorunda, bir qayda olaraq, istehsal sahələrinə nisbətən daha çox insan üçün iş yerləri yaradılır. Bu baxımdan, xidmət sahələrinin inkişafı, ölkənin davamlı sosial-iqtisadi tərəqqisində bu sahələrin rolunun artırılması xüsusi aktuallıq kəsb edir. Qarşıda duran başlıca məsələlərdən biri də Azərbaycan Respublikasının nəqliyyat-tranzit, turizm və s. xidmət sahələrində mövcud olan potensialdan tam və səmərəli istifadə etməklə, xidmət sektorunu ÜDM-in və məşğulluğun əsas aparıcı istiqamətinə çevirməkdir».

Əksər xidmət sahələrinin fəaliyyəti insanların gündəlik həyatı ilə daha çox əlaqədardır və xidmətlərin spesifikliyi ondadır ki, onlar birbaşa təqdim olunan zaman reallaşır. Xidmət və ya servis bir tərəfin digərinə təklif edə biləcəyi, hiss olunmaz və hər hansı bir predmetin əldə edilməsinə gətirib çıxarmayan fəaliyyətdir. Xidmətlərin duyulmazlığı, saxlanıla bilməməsi və s. kimi səciyyəvi xüsusiyyətləri, eləcə də bu sahənin insanların zövq və tələbatı ilə ciddi şəkildə bağlılığı xidmət sahələrinin davamlı inkişafında kadr məsələlərinə də ciddi yanaşmağı zəruri edir.

A.Əsədov belə hesab edir ki, bu istiqamətdə seçilmiş hədəflərə nail olmaqda mühüm təsiredici amillərdən biri də vergi məsələləri ilə bağlıdır, xidmət sahələrinin davamlı inkişafında vergi amili olduqca mühüm əhəmiyyət kəsb edir: «Nəzərə alsaq ki, iqtisadiyyatın tənzimlənməsində və iqtisadi fəaliyyət növlərinin stimullaşdırılmasında vergi dövlətin əsas dayağıdır, onda xidmət sahələrinin davamlı inkişafının təmin olunmasında vergi siyasətinin də üzərinə müəyyən vəzifələrin düşdüyü aydın olar. Ümummilli lider H.Əliyevin sözləri ilə ifadə etsək, bazar iqtisadiyyatı vergi yolu ilə tənzimlənməlidir. Bu fikir müasir dövrdə vergi siyasətinin, vergi qanunvericiliyinin əhəmiyyətini, iqtisadiyyatın bu və ya digər sahəsinin inkişafında verginin rolunu ifadə edir. Təbii ki, vergi siyasəti və qanunvericiliyi də büdcəyə ödənişlərin vaxtlı-vaxtında aparılmasını təmin etməklə yanaşı, milli iqtisadiyyatın prioritet sahələrinin inkişafını da dəstəkləməlidir».

**Fəxriyyə İKRAMQIZI**

# Regionlarda iri fermer təsərrüfatları yaradılır

Aqrar sahədə həyata keçirilən yeni layihələrdən biri də iri fermer təsərrüfatlarının yaradılmasıdır. Ötən ildən tətbiqinə başlanılan bu model artıq iqtisadi səmərəlilik baxımından özünü doğrultmaqdadır. Prezident İlham Əliyev Cəlilabadda istifadəyə verilən müasir tipli iri fermer təsərrüfatının açılışında bildirb ki, ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasında və aqrar sahənin inkişafında iri fermer təsərrüfatlarının mühüm rolu vardır: «Bu gün artıq Azərbaycanda 20-yə yaxın iri fermer təsərrüfatı fəaliyyət göstərir və bu təsərrüfatlarda məhsuldarlıq ölkə üzrə orta məhsuldarlıqdan ən azı 2 dəfə yüksəkdir. İri fermer təsərrüfatının fəaliyyət göstərməsi həm iş yerlərinin açılması, həm də yeni bir kənd təsərrüfatı sisteminin formalaşması deməkdir».

Dövlət başçısı bu layihələrin bütün regionlarda yaradılması üçün Sahibkarlığa Kömək Milli Fondundan güzəştli kreditlərin ayrılacağını, digər mənbələr hesabına fermer təsərrüfatlarının sayının artırılmalı olduğunu diqqətə çatdırıb. İqtisadiyyat və Sənaye Nazirliyindən (İSN) bildirildiyinə görə, hazırda Ağcabədi, Ağsu, İmişli, Hacıqabul, Xaçmaz, Füzuli, Salyan, Saatlı, Biləsuvar, Şamaxı rayonlarında bu cür təsərrüfatların yaradılması istiqamətində işlər aparılır. Bu məqsədlə 30 min hektar torpaq sahəsində 15 sahibkarlıq subyekti tərəfindən iri fermer təsərrüfatları yaradılmaqdadır. Dövlət indiyədək bu sahəyə 55 milyon manat ayırıb,əlavə olaraq 100 milyon manata yaxın vəsait də ayrılacaq.

Bu cür layihələrin həyata keçirilməsi yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsulları istehsalının inkişafı üçün münbit şərait yaratmaq, bu sahədə sahibkarlığı dəstəkləmək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artıracaq. Belə təsərrüfatların yaradılması idxaldan asılılığın aradan qaldırılmasına, daxili bazarın keyfiyyətli məhsullarla təmin edilməsinə və ərzaq təhlükəsizliyinin gücləndirilməsinə xidmət edir. Bununla ölkədə ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı da stimullaşdırılacaq.

Dövlət 2020-ci ilə qədər iri fermer təsərrüfatlarının yaradılması üçün 200 min hektar torpaq sahəsinin ayrılmasını nəzərdə tutur. Həmin dövrədək kənd təsərrüfatı məhsullarının həcminin iki dəfə artırılması və iqtisadi artımın böyük hissəsinin bu sektorun hesabına təmin olunması planlaşdırılır.

Prezident İlham Əliyevin imzaladığı «Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında» fərmanda qeyd olunan başlıca məsələlərin həlli ilə bağlı artıq konkret istiqamətlər müəyyənləşdirilib. Kənd təsərrüfatı üzrə ekspert Akif Vəliyev hesab edir ki, iri fermer təsərrüfatları ilə istehsal sahəsində aparıcı olan kənd təsərrüfatı müəssisələri arasındakı münasibətlər istehsalın səmərəliliyinin yüksəldilməsinə istiqamətləndirilmiş kooperasiya prinsipləri əsasında qurulur. Kiçik fermer təsərrüfatları və aqrar müəssisələr arasında əlaqələrin formalaşması və inkişaf etdirilməsi sayəsində iri istehsal təsərrüfatı yaradılır və fermerlərin mülkiyyətində olan texnikalar birləşdirilir, onunla vahid torpaq massivi becərilir. Öz təsərrüfatlarının davamlığını yüksəltmək, kənd təsərrüfatı istehsalını genişləndirmək, əlavə gəlir qazanmaq məqsədilə fermerlər əsas fəaliyyətləri ilə paralel olaraq digər işləri də görürlər. Bundan başqa, iri fermer təsərrüfatları yüklərin daşınması, kənd təsərrüfatı texnikasının təmiri, məhsulların satın alınması və saxlanması, məhsulun maya dəyərinin azaldılması üçün qarışıq yemlərin və inşaat materiallarının istehsalı ilə də məşğul olurlar.




*30 min hektar torpaq sahəsində 15 sahibkarlıq subyekti tərəfindən iri fermer təsərrüfatları yaradılmaqdadır*

Bu cür təsərrüfatlar iqtisadi səmərəlilik baxımından özünü doğruldur və onların başlıca iqtisadi funksiyası ölkənin ehtiyacları üçün ərzaq məhsulları, bioloji təmiz məhsul istehsal etmək, torpaqların dövriyyədə saxlanmasını və keyfiyyətini yüksəltmək, ucuz təsərrüfat materiallarından istifadə olunmasını təmin etməkdir. Bu təsərrüfatların sosial funksiyası da böyükdür və ən mühüm üstünlüyü ictimai istehsalla məşğul olmayan əmək ehtiyatlarından daha dolğun istifadə, iş və yaşayış yerinə gediş-gəliş üçün sərf edilən vaxtın azaldılması, işçi qüvvəsinin çoxalması üçün şəraitin yaxşılaşdırılması, kənd əhalisinin həyat keyfiyyətinin yüksəldilməsidir.

Avropa İttifaqı (Aİ) da Azərbaycanda iri fermer təsərrüfatlarının yaradılmasına dəstək göstərəcək. Aİ Azərbaycan hökuməti ilə birgə Texniki Yardım və İnformasiya Mübadiləsi (TAİEX) Proqramı çərçivəsində «Torpaqların konsolidasiyası və iri fermer təsərrüfatlarının yaradılması» layihəsini həyata keçirməyi nəzərdə tutur. Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı İlham Bayramov bildirib ki, birgə əməkdaşlıq çərçivəsində iri fermer təsərrüfatlarının yaradılması sahəsində Avropanın qabaqcıl ölkələrinin təcrübəsi öyrəniləcək, Litvadakı model ölkəmizdə tətbiq ediləcək.

**Elbrus CƏFƏRLİ**

# Ödənişlər asanlaşdırılır

«ASAN ödəniş» sistemi inzibati cərimə növündə inzibati tənbeh tətbiq edilməsi barədə qərarların və yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətaların törədilməsinin xüsusi texniki vasitələrin köməyi ilə aşkar olunan foto və ya video görüntülərinin vətəndaşların elektron ünvanlarına, mobil telefon nömrələrinə elektron qaydada göndərilməsini, inzibati cərimələrin elektron qaydada ödənilməsini, məhkəmə qərarlarının icrası ilə əlaqədar ödənilməli olan vəsaitlərin xüsusi ödəmə terminalları ilə ödənilməsi kimi əməliyyatların aparılmasını təmin edir. Bu sistemdən yanacaqdoldurma məntəqələrində, avtomobil dayanacaqlarında, ticarət mərkəzlərində və əhalinin intensiv istifadə etdiyi digər ictimai yerlərdə quraşdırılmış xüsusi terminallar vasitəsilə istifadə etmək olar. Ödənişləri nağd və ya bank kartı ilə, eləcə də www.asanpay.az ünvanındakı «ASAN ödəniş» portalında qeydiyyatdan keçməklə və ya qeydiyyatdan keçmədən də rahat həyata keçirmək mümkündür. Portalda ödənişlər «inzibati xətalara görə» və «digər ödənişlər» kateqoriyası üzrə qruplaşdırılıb. Portalda qeydiyyatdan keçmək cərimələrin və borcların ödənişinə aid bir sıra imkanlardan istifadə fürsəti verir. Portalda qeydiyyatdan keçdikdən sonra «Elektron kabinet» açılır. Bu kabinet «ASAN ödəniş» portalında istifadəçiyə aid məlumatların, cərimələrin və s. ödənişlərin elektron idarəetmə panelidir və elektron kabinetdə istifadəçi ona tətbiq olunan inzibati tənbehlərlə bağlı hərtərəfli informasiyalar ilə tanış olmaq imkanı əldə edir. Burada inzibati pozuntuya dair protokollar, qanun pozuntularını əks etdirən ilə bağlı foto və video görüntülər yerləşdirilir. İstifadəçi «Elektron kabinet» vasitəsi ilə cərimələr və inzibati tənbehlər haqqında məlumatlara baxmaq, tətbiq edilmiş cərimələr barədə məlumat almaq, inzibati tənbeh protokollarının detalları (foto və video) ilə tanış olmaq, cərimələr üzrə ödənişləri həyata keçirmək, əməliyyatların tarixçəsinə baxmaq, eləcə də yerinə yetirilən ödənişlər haqqında bildirişləri çap etmək imkanları qazanır.

Ödənişin vahid nöqtədən sadə və tez həyata keçirilməsi, inzibati cərimələr üzrə informasiya əldə etmək imkanının olması, inzibati cərimələr üzrə qərarlara etiraz etmək üçün şərait yaradılması «ASAN ödəniş» sisteminin verdiyi üstünlüklərdir. Sistemdə ödəniş əməliyyatlarının həyata keçirilməsi təhlükəsizlik baxımından da əlverişlidir. İstifadəçilərin məxfi məlumatlarının tamlığına və qorunmasına böyük əhəmiyyət verilir. «ASAN terminal»lar vasitəsi ilə ödəniş zamanı ödəniş beynəlxalq sertifikata malik sistemin qorunan səhifəsində emal edilir. Bu o deməkdir ki, vətəndaşa aid məlumatların məxfiliyi tamamilə qorunur və heç kim, o cümlədən «ASAN ödəniş» portalı vətəndaşın bank göstəricilərini əldə edə bilmir.

**AYTƏN**

# Vizaların verilməsi tam elektronlaşdırılmalıdır



*E-viza ilə bağlı proseslərin sürətləndirilməsi, bu sahənin daha çevik və səmərəli qurulması ilə bağlı mövcud vəziyyəti öyrənmək üçün «Elektron hökumət» portalının operatoru Məlumat Hesablama Mərkəzinin şöbə müdiri İlqar Abdullayevə müraciət etdik.*

Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunları ilə bağlı keçirilən iclasda ölkəmizə daha böyük sayda turistin səfərini təmin etmək üçün elektron viza məsələlərinə də toxunub. Dövlət başçısı qeyd edib ki, son dövrlərdə viza məsələsi, xüsusilə də elektron viza ilə bağlı ölkə qanunvericiliyində bir sıra yeniliklər qəbul edilib.

«Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə viza rəsmiləşdirilməsi sahəsində təxirəsalınmaz tədbirlər haqqında» 20 noyabr 2012-ci il tarixli və «Vizaların verilməsi işinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında» 20 noyabr 2014-cü il tarixli Prezident sərəncamlarında da elektron vizanın verilməsi məsələsi qeyd olunub.

***- İlqar müəllim, elektron viza xidmətinin əsasları necə formalaşır? E-viza üçün müraciət qaydaları, zəruri prosedurlar necə müəyyən olunub?***

- Dünya ölkələrinin təcrübəsində miqrasiya prosesinin sadələşdirilməsi məqsədilə aidiyyəti saytlarda viza üçün sorğu anketi təqdim edilir. E-viza sorğu anketində immiqrantın fərdi məlumatları ilə yanaşı, səfərin məqsədi və müddəti qeyd edilir, pasportun surəti yüklənilir, vizanın növü, turistik, işgüzar (biznes), rəsmi səfər, təhsil, müalicə, şəxsi (qohum və ya dostların ziyarəti), tranzit, idman yarışlarında iştirakı qeyd edilir. Viza üçün tələb olunan dövlət rüsumu sayt üzərindən plastik kartlar vasitəsilə elektron şəkildə ödənilir.

Müəyyən edilmiş zaman ərzində anketdə göstərilmiş elektron ünvana verilmiş vizanın təsdiqi barədə bildiriş göndərilir. Bəzi ölkələrdə eyni informasiya link şəklində mobil telefona göndərilir. Böyük Britaniya kimi bir çox inkişaf etmiş ölkələrdə elektron vizaların qeydiyyatı «bir pəncərə» prinsipi əsasında vahid elekton mühitdən, «Elektron hökumət» portalı üzərindən həyata keçirilir.

***- Ölkəmizdə e-viza məsələsinin həllində ən effektiv üsul kimi nəyi təklif edirsiniz?***

- Hazırda vətəndaşlara 400-dən artıq e-xidmət göstərən «Elektron hökumət» portalının tərkibində immiqrantlar üçün yeni bölmə yaratmaq olar. Gələcəkdə bu bölmənin funksiyalarını genişləndirərək Azərbaycana ziyarət edən əcnəbilər üçün zəruri elektron xidmətlər, hətta ünsiyyət platforması da təqdim etmək mümkündür.

Bu məsələnin tənzimlənməsində dövlət-vətəndaş tərəfdaşlığı, dövlət və özəl strukturların öhdəlikləri var. Dövlət sektoru elektron vizanın verilməsi üçün tələb olunan sənədlərin siyahısını və növlərini hazırlayır, dövlət rüsumu və internet üzərindən onlayn qaydada ödəmə üsullarını müəyyənləşdirir, sənədlərin qeydiyyatı və viza verilməsi prosesinin həyata keçirilməsinə icazə verir və mövcud qanunvericiliyə əməl olunmasına nəzarət edir.

Özəl tərəfdaşlar isə elektron viza sisteminin real vaxt rejimində sabit işini təmin edir (sayta dəstək, məlumatların ötürülməsi, zəng mərkəzinin fəaliyyəti və istifadəçiyə dəstək), dövlət rüsumları üzrə əldə olunan vəsaitlərin toplanılmasını həyata keçirir, əldə olunan vəsaitlərdən dövlət tərəfindən müəyyənləşdirilmiş məbləği büdcəyə köçürür.

***- Qardaş Türkiyədə elektron viza sistemi tam formalaşıb. Bizə bu ölkənin təcrübəsi faydalı ola bilərmi?***

- Türkiyədə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən 10 gün ərzində akkreditasiyadan keçmiş, fəaliyyəti 1 ildən az olmayan lisenziyalı turizm şirkətlərinə e-viza verməyə icazə verilir. E-viza saytı isə Xarici İşlər Nazirliyinə aiddir. Sayt türk dili də daxil olmaqla 9 dildə (ərəb, alman, ingilis, ispan, fransız, holland, polyak, Çin) fəaliyyət göstərir. Vizanın müddəti 180 gündür. Müəyyən olunmuş müddətdən artıq qalmaq üçün rayon polis idarəsinin müvafiq şöbəsinə müraciət edilməlidir. Növbəti mərhələdə istifadəçinin məlumatları təsdiq edilir. Məlumatlar təsdiq edildikdən sonra bu barədə bildiriş immiqrantın elektron poçt ünvanına göndərilir.

Ödəniş mərhələsində istifadəçi bildiriş və pasportun nömrəsi, elektron poçt ünvanı barədə məlumat verməklə ödəniş etməlidir.

***- Bizdə e-viza üçün anketi haradan əldə etmək olar?***

- Hazırda ölkəmizdə e-viza almaq üçün anket Xarici İşlər Nazirliyinin rəsmi saytında təqdim edilir: www.mfa.gov.az/anket. E-viza anketini ingilis və Azərbaycan dilində tamamlamaq mümkündür. E-viza üç həftə dəyərləndirildikdən sonra PDF formatında immiqrantın anketdə göstərdiyi elektron poçt ünvanına göndərilir, bundan sonra isə immiqrant əldə etdiyi vizaya möhür vurdurmaq üçün aidiyyəti quruma getməlidir. Bu prosesin tam elektronlaşmasına ehtiyac var. Bu, immiqrantların işini asanlaşdırmaqla yanaşı, ölkəmizə səyahət etmək istəyən xarici immiqrantlarda motivasiya yaratmaq baxımından da əhəmiyyətlidir.

***Müsahibəni hazırladı:***
**Fəxriyyə İKRAMQIZI**

# Önəmli iqtisadi qərarlar

Mərkəzi Bank bankların əməliyyat xərclərinin optimallaşmasına dəstək vermək və maliyyə resurslarının maya dəyərinin azaldılması ilə faiz dərəcələrinin aşağı düşməsini stimullaşdırmaq məqsədilə bir sıra yeni qərarlar qəbul edib.

Mərkəzi Bankın digər qərarları isə kredit təşkilatlarında korporativ sosial məsuliyyətin artırılması, istehlakçıların maliyyə vəziyyətinə, ehtiyac və məqsədlərinə uyğun məhsulların təqdim edilməsinin təşviqinə yönəldilib.

Mərkəzi Bankın İdarə Heyətinin qərarına əsasən AZİPS (Real vaxt rejimində banklararası hesablaşmalar sistemi) sistemi vasitəsilə aparılan banklararası ödənişlər üzrə xidmət haqları 2 dəfə azaldılmışdır. Bununla yanaşı, nağd pulun məxarici üzrə tariflərə dəyişikliklər edilərək, iri nominallı əskinaslara (50 və 100 manat) tətbiq olunan 0,15% tarif ləğv olunub, nağd pulun gün ərzində ikinci və daha sonrakı mədaxili və məxarici üzrə tariflər isə 0,05% müəyyənləşdirilib.

Bank xidmətləri istehlakçılarının hüquqlarının müdafiəsi, kredit məhsullarının dəyərinin şəffaflığının təmin edilməsi istiqamətində həyata keçirilən növbəti tədbirlərdən biri kimi Mərkəzi Bankın İdarə Heyətinin digər qərarı ilə «Banklarda və bank olmayan kredit təşkilatlarında məsuliyyətli kreditləşmə haqqında metodoloji rəhbərlik» təsdiq edilib. Bu təlimatda kredit təşkilatlarına istehlakçıların aylıq borc yükünün onların gəlirlərinə uyğunluğunun müəyyənləşdirilməsi, eləcə də kredit şərtlərinin istehlakçıların ehtiyac və məqsədlərinə uyğunluğunun qiymətləndirilməsi üzrə tövsiyələr verilib.

Bütövlükdə, Metodoloji Rəhbərliyin tətbiqi kredit təşkilatlarında məsuliyyətli kreditləşmə, istehlakçılarda isə məsuliyyətli borclanma vərdişlərini inkişaf etdirməklə əhalinin izafi borclanmasının qarşısının alınmasına xidmət edəcəkdir.

İqtisadçı ekspert Pərviz Heydərovun fikrincə, Mərkəzi Bankın qəbul etdiyi qərarları qlobal iqtisadiyyat və bölgədə baş verən son proseslər fonunda ölkədə makroiqtisadi sabitliyi qorumaqla yanaşı, iqtisadi artımı və milli iqtisadiyyatın şaxələnməsi proseslərini dəstəkləmək məqsədilə görülən və həyata keçirilən tədbirlərin davamı saymaq olar. Çünki burada söhbət iqtisadi subyektlərin maliyyə xidmətlərinə çıxış imkanlarını genişləndirməkdən, kreditləşmədə məsuliyyətliliyi artırmaqdan, kredit faizlərinin azaldılması istiqamətində tədbirləri davam etdirməkdən gedir: «Real maliyyə və iqtisadi şərait baxımından bu, olduqca vacibdir. Yeri gəlmişkən, fevralın 21-də manatın dəyəri ucuzlaşdıqdan sonra bankların fəailiyyətində - bütövlükdə bank sektorunda bir növ «yenidən yüklənmə» tendensiyası yaranıb. Banklara dəstək məqsədilə bir sıra zəruri addımlar atılıb. Ölkənin bank sektorunu ortaya çıxan potensial risklərdən qorumaq məqsədilə bir-birinin ardınca zəruri sığorta tədbirləri həyata keçirilib».

Milli Bankın bu qərarları ilə əlaqədar ölkədə kreditləşdirmənin məhdudlaşacağı barədə rəylər də səsləndirilməkdədir. P.Heydərov bu fikirlə razılaşmayaraq bildirib ki, Milli Bank tərəfindən kommersiya banklarına istehlak və avtomobil kreditlərinin verilməsinin daha müfəssəl tənzimlənməsi istiqamətində müvafiq tövsiyələr hələ keçən ilin əvvəlindən verilir ki, bu, heç də ölkədə pul-kredit siyasətinin sərtləşdirilməsi demək deyil: «Buna əyani misal olaraq, istehlak kreditlərinin həcminin fasiləsiz olaraq artmasını göstərmək olar. 2015-ci il martın 1-də istehlak kreditləri pik həddə - 8 milyard 416,7 milyon manata çatmışdı. 2005-ci ildən indiyədək isə istehlak kreditlərinin həcmi 7 milyard 495,4 milyon manat artıb. Bunun fonunda problemli kreditlərin də həcmi yüksəlib.

Sual yaranır ki, belə bir şəraitdə bu və ya digər kredit təşkilatı kredit almaq üçün müraciət edən istehlakçıdan onun ödəmə qabiliyyəti və təyinata uyğunluğu haqda qiymətləndirmə üçün zəruri məlumatlar toplamalı deyilmi?

Bu mənada, Milli Bankın kredit təşkilatlarında korporativ sosial məsuliyyəti artırmaq, istehlakçıların maliyyə vəziyyətinə, ehtiyac və məqsədlərinə uyğun məhsulların təqdim edilməsi nöqteyi-nəzərdən qəbul etdiyi qərarlarla bağlı mövqeyi və siyasəti olduqca əhəmiyyətlidir».

Vurğulanmışdır ki, nağd pulun məxarici üzrə tariflərə dəyişikliklərə gəldikdə iri nominallı əskinaslara (50 və 100 manat) tətbiq olunan 0,15% tarifin ləğv edilməsi, nağd pulun gün ərzində ikinci və daha sonrakı mədaxili və məxarici üzrə tariflərin 0,05 % müəyyən edilməsi ölkədə pul bazasının mövcud inkişafı baxımından olduqca müsbət və əhəmiyyətli qərardır.

Milli Bankın qeyd olunan qərarları həm real sektorun inkişafı, həm də əhalinin qayğısına qalınması, vətəndaşların əlavə borc bataqlığına düşmələrinin qarşısının alınması baxımından zəruri və yerində atılmış addımlardır.

# Bələdiyyə vergilərinin ödənilmə vaxtıdır

Vergi Məcəlləsi ilə müəyyən edilmiş 4 bələdiyyə vergisi mövcuddur:

- fiziki şəxslərin torpaq vergisi;
- fiziki şəxslərin əmlak vergisi;
- yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi;
- bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisi.

Bələdiyyə vergilərinin dərəcələri vergi qanunvericiliyində təsbit edilmiş hədlər daxilində müəyyən edilir. Bununla yanaşı, bələdiyyələr öz ərazilərində vergi ödəyicilərinin ayrı-ayrı kateqoriyalarını yerli vergilərdən tam və ya qismən azad etmək, vergi dərəcələrini azaltmaq barədə qərar qəbul edə bilərlər.

Bununla belə, bələdiyyələrin hansısa vergini artırmaq səlahiyyətləri yoxdur.

***Fiziki şəxslərin torpaq vergisi***

Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində torpaq sahələri olan fiziki şəxslər və müəssisələr torpaq vergisinin ödəyiciləri hesab olunurlar. Torpaq vergisi torpaq mülkiyyətçiləri və ya istifadəçilərinin təsərrüfat fəaliyyətinin nəticəsindən asılı olmayaraq torpağın sahəsinə görə illik hesablanır. Torpaq vergisi torpaq barəsində mülkiyyət və ya istifadə hüququnu təsdiq edən sənədlər əsasında müəyyənləşdirilir. Tikililərin və qurğuların altında olan torpaqlara, həmçinin obyektlərin sanitariya mühafizəsi üçün zəruri olan torpaq sahələrinə görə torpaq vergisi tətbiq edilir. Fiziki şəxslər və bələdiyyə müəssisələri torpaq sahələri barədə özlərinin mülkiyyət və istifadə hüquqlarını təsdiq edən sənədləri aldıqdan sonra bələdiyyələrdə bir ay müddətində uçota durmalıdırlar. Kənd təsərrüfatı torpaqlarının vergi dərəcələri torpaqların təyinatı, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla şərti ballar əsasında torpaq sahəsinin hər bir hektarına görə hesablanır. Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş bir şərti balın qiyməti 6 qəpikdir.

Kənd təsərrüfatı torpaqları istisna olmaqla, torpaq vergisi torpaq sahəsinin hər 100 kvadratmetrinə görə cədvəldə göstərilən dərəcələr üzrə tətbiq olunur *(Bax: Cədvəl 1)*.

Fiziki şəxslərin torpaq vergisi bələdiyyələr tərəfindən hər il iyul ayının 1-dək hesablanır və ödənilməli olan torpaq vergisinin məbləğini özündə əks etdirən tədiyyə bildirişi avqust ayının 1-dən gec olmayaraq onlara çatdırılır. Bir neçə fiziki şəxsin mülkiyyətində və ya istifadəsində olan tikililərin altında qalan və ya onlara xidmət üçün ayrılmış torpaq sahələrinə görə vergi onlara məxsus tikili sahələrinə mütənasib surətdə hesablanır. Hesablanmış torpaq vergisi bərabər məbləğlərdə 15 avqust və 15 noyabr tarixlərindən gec olmayaraq fiziki şəxslər tərəfindən yerli (bələdiyyə) büdcəyə ödənilir. Torpaq vergisi torpağın əvvəlki sahibi tərəfindən ödənilmədiyi halda vergi müəyyən edilmiş ödəmə vaxtına həmin torpağın sahibi tərəfindən ödənilməlidir.

Fiziki şəxslərin sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə etdikləri torpaqlara görə hesablanmış torpaq vergisinin məbləği gəlirdən çıxılmalara aid edilir *(Bax: Cədvəl 2)*.

***Fiziki şəxslərin əmlak vergisi***

Rezident və qeyri-rezident fiziki şəxslər əmlak vergisinin ödəyiciləridir. Fiziki şəxslərin xüsusi mülkiyyətində olan və Azərbaycan Respublikasının ərazisində yerləşən tikililərin və ya onların hissələrinin, həmçinin yerindən və istifadə edilib-edilməməsindən asılı olmayaraq rezident fiziki şəxslərə məxsus su və hava nəqliyyatı əmlak vergisinin vergitutma obyektidir.

Fiziki şəxslər əmlak vergisini aşağıdakı qaydada və dərəcələrlə ödəyirlər:

- Xüsusi mülkiyyətində olan binaların sahəsinin (yaşayış sahələrinə münasibətdə - onların 30 kvadratmetrdən artıq olan hissəsinin) hər kvadratmetrinə görə aşağıdakı cədvəldə göstərilən dərəcələr tətbiq olunur (bina Bakı şəhərində yerləşdikdə həmin dərəcələrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi 0,7-dən aşağı və 1,5-dən yuxarı olmayan əmsallar tətbiq edilməklə) *(Bax: Cədvəl 3)*.
- su və hava nəqliyyatı vasitələrinə görə mühərrikinin 1 kub santimetri üçün 0,02 manat; mühərriki olmayan su və hava nəqliyyatı vasitələri üçün - onların bazar qiymətinin 1% qədərində.

Su və hava nəqliyyatı vasitələrinə görə vergi onların qeydiyyatını həyata keçirən təşkilatlar tərəfindən verilən məlumatlar əsasında hər il yanvarın 1-i vəziyyətinə hesablanılır. Belə qeydiyyatın olmadığı hallarda həmin əmlakın sahibi mülkiyyətində olan su və hava nəqliyyatı vasitələri barədə lazımi məlumatları (buraxılış ili, alış qiyməti və texniki xarakteristikası) əks etdirən sənədləri hər il yanvar ayının 1-dək bələdiyyəyə təqdim edir. Bir neçə fiziki şəxsə məxsus olan su və hava nəqliyyatı vasitəsinə görə vergi həmin nəqliyyat vasitəsini öz adına qeydiyyatdan keçirmiş şəxsdən tutulur. Bələdiyyələr əmlak vergisinin ödənilməsi barədə tədiyyə bildirişini vergi ödəyicilərinə avqustun 1-dən gec olmayaraq verməlidirlər. Cari il üçün verginin məbləği bərabər hissələrlə - həmin il avqustun 15-dək və noyabrın 15-dək ödənilir.

Binalar üzrə əmlak vergisi əmlak sahəsinin hər kvadratmetrinə əsasən hesablanır. Fiziki şəxslərin xüsusi mülkiyyətində olan binalara görə əmlak vergisi onların yerləşdiyi ərazinin bələdiyyəsi tərəfindən hesablanır. Bir neçə sahibi olan bina üzrə əmlak vergisi həmin binanın hər sahibi üçün binanın dəyərindəki payına uyğun olaraq hesablanır.

Əmlak vergisi əmlakın əvvəlki sahibi tərəfindən ödənilmədiyi hallarda vergi ödəmə vaxtında həmin əmlakın mövcud faktiki sahibi tərəfindən ödənilir.

***Mədən vergisi***

Azərbaycan Respublikasının ərazisində faydalı qazıntıların çıxarılmasına görə ödənilən vergi mədən vergisi adlanır və yerin təkindən bu faydalı qazıntıları çıxaran fiziki şəxslər və müəssisələr mədən vergisinin ödəyiciləridir. Aşağıdakı yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi bələdiyyə büdcəsinə ödənilir:

- kərpic-kirəmit gilləri;
- tikinti qumları;
- çınqıl xammalı.

Fiziki şəxslər və müəssisələr bu tikinti materiallarına görə yerin təkindən çıxarılan hər 1 kub metr material üçün 0,5 manat məbləğində vergi ödəyirlər. Mədən vergisi üzrə vergitutulan əməliyyatın aparıldığı vaxt faydalı qazıntıların çıxarıldığı vaxt sayılır.

Mədən vergisi üzrə hesabat dövrü təqvim ayıdır. Hesabat ayı üçün mədən vergisinin məbləği faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dək ödənilir. Mədən vergisinin bəyannaməsini hər ay, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq bələdiyyələrə təqdim etməlidirlər.

Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar isə mənfəət vergisini bələdiyyə büdcəsinə ödəyirlər. Bu verginin dərəcəsi 20%-dir.

**Rəşad SADIQOV**

**Cədvəl 1**

| Yaşayış məntəqələri | Sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaqlar (manatla) | |
|---|---|---|
| | *10000 $m^2$-dək olduqda* | *10000 $m^2$-dən yuxarı olan hissə üçün* |
| Bakı | 10 | 20 |
| Gəncə, Sumqayıt şəhərləri və Abşeron rayonu | 8 | 16 |
| Digər şəhərlər (rayon tabeliyində olan şəhərlər istisna olmaqla), rayon mərkəzləri | 4 | 8 |
| Rayon tabeçiliyində olan şəhərlərdə, qəsəbələrdə və kəndlərdə (Bakı və Sumqayıt şəhərlərinin, habelə Abşeron rayonunun qəsəbə və kəndləri istisna olmaqla) | 2 | 4 |

**Cədvəl 2**

| Yaşayış məntəqələri | Yaşayış fondlarının, həyətyanı sahələrin torpaqları və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar (manatla) | |
|---|---|---|
| | *10000 $m^2$-dək olduqda* | *10000 $m^2$-dən yuxarı olan hissə üçün* |
| Bakı | 0,6 | 1,2 |
| Gəncə, Sumqayıt şəhərləri və Abşeron rayonu | 0,5 | 1 |
| Digər şəhərlər (rayon tabeliyində olan şəhərlər istisna olmaqla), rayon mərkəzləri | 0,3 | 0,6 |
| Rayon tabeçiliyində olan şəhərlərdə, qəsəbələrdə və kəndlərdə (Bakı və Sumqayıt şəhərlərinin, habelə Abşeron rayonunun qəsəbə və kəndləri istisna olmaqla) | 0,1 | 0,2 |

**Cədvəl 3**

| Yaşayış məntəqələri | Fiziki şəxsin xüsusi mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələri (manatla) | |
|---|---|---|
| Bakı | 0,4 | 1,2 |
| Gəncə, Sumqayıt şəhərləri və Abşeron rayonu | 0,3 | 1 |
| Digər şəhərlər (rayon tabeliyində olan şəhərlər istisna olmaqla), rayon mərkəzləri | 0,2 | 0,6 |
| Rayon tabeçiliyində olan şəhərlərdə, qəsəbələrdə və kəndlərdə (Bakı və Sumqayıt şəhərlərinin, habelə Abşeron rayonunun qəsəbə və kəndləri istisna olmaqla) | 0,1 | 0,2 |

vergi cinayətləri

## Vergidən yayınma cinayət məsuliyyəti yaradır

Tikinti materiallarının alqı-satqısı ilə məşğul olan «Kaspian Provide Korporeyşn» MMC-nin təsisçisi Əli Vəli oğlu Əliyev sahibkarlıq fəaliyyətinə başladığı ilk dövrlərdə vergi öhdəliklərini vaxtında yerinə yetirsə də, sonradan vergidən yayınmaq üçün müxtəlif üsullara əl atıb. Müəssisənin fəaliyyətinə dair mühasibat sənədlərini və vergi bəyannamələrini bilə-bilə təhrif olunmuş formada hazırlayaraq vergi orqanına təqdim edib. Vergi orqanlarının qanun çərçivəsində həyata keçirdikləri səyyar yoxlamalar zamanı Ə.Əliyevin yol verdiyi vergi qanunsuzluqları öz təsdiqini tapıb və onun bir neçə növ üzrə vergiləri ödəmədiyi məlum olub. Aşkar edilib ki, ümumi həcmi 10 326,34 manat təşkil edən vergilər dövlət büdcəsindən yayındırılıb.

Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin apardığı istintaq zamanı müəyyən edilib ki, Ə.Əliyev təsisçisi olduğu müəssisənin nəzərdə tutulmuş bütün funksiyalarını özü yerinə yetirib. Əmlakın maliyyə-təsərrüfat fəaliyyətinin uçotunun aparılması, vergilərin hesablanması və dövlət büdcəsinə ödənilməsi kimi əməliyyatları özü icra edib. Onun barəsində Cinayət Məcəlləsinin 213.1-ci maddəsi ilə cinayət işi başlanılıb, «başqa yerə getməmək haqqında iltizam» qətimkan tədbiri seçilib. Sahibkarlıq fəaliyyətinə dair mühasibat, bank, hesabat sənədləri iş materialları ilə təsdiq edildiyindən maddi sübut kimi tanınaraq cinayət işinə əlavə olunub.

İş üzrə təqsirləndirilən şəxs qismində dindirilmiş «Kaspian Provide Korporeyşn» MMC-nin təsisçisi və direktoru Ə.Əliyev ona elan edilmiş ittiham üzrə özünü təqsirli bilərək ifadəsində göstərib ki, tikinti materiallarının alış sənədlərinin, qaimə-fakturaların və digər xərc sənədlərinin yoxlama zamanı tam təqdim edilməməsi, mənfəət vergisini az hesablamaqla xərclərin çox göstərilməsi və gəlirlərin bilərəkdən azaldılması kimi yollara əl ataraq vergidən yayınıb. İfadəsində tutduğu əməldən peşman olduğunu və gələcəkdə belə hallara yol verməyəcəyini bildirib.

İstintaq zamanı müəyyən edilmiş hallar iş materialları ilə, o cümlədən şahid ifadələri, ekspert rəyləri və iş üzrə toplanmış digər sübutlarla təsdiq olunub.

Xətai rayon məhkəməsinin hökmü ilə Əli Əliyev barəsində 2 il islah işlərinə cəlb olunması barədə qərar çıxarılıb.

**ELBRUS**

## Yeni hesablar planı üzrə ikili yazılışların verilməsi

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

Yeni hesablar planında əks etdirilən bütün mühasibat hesablarında aparılacaq əməliyyatlara dair ikili yazılışların verilməsi ilə bağlı bu dəfə mövzumuz 201 saylı «Xammal və materiallar» hesabı üzrə nağd qaydada xammal və materialların avans ödəmə yolu ilə alınmasına dair ikili yazılışlara həsr olunub. Nəzərinizə çatdırırıq ki, göstərilən nümunələr şərtidir və öyrədici səciyyə daşıyır.

**ƏDV ödəyicisi tərəfindən nağd qaydada 100% avans ödəmə yolu ilə materialların alınması**

| Tarix | Hesabın №-si | Hesabın adı | Əməliyyatın məzmunu | Debet (məbləğ) | Kredit (məbləğ) |
|---|---|---|---|---|---|
| 06.01.2015 | 243 | Verilmiş qısamüddətli avanslar | Alınacaq materialların ƏDV ilə birlikdə dəyəri qabaqcadan avans olaraq kassadan malsatana (onun vəkalətnamə təqdim etdiyi şəxsə) ödənilib | 11800 | |
| 06.01.2015 | 221 | Kassa | Alınacaq materialların ƏDV ilə birlikdə dəyəri qabaqcadan avans olaraq kassadan malsatana (onun vəkalətnamə təqdim etdiyi şəxsə) ödənilib | | 11800 |
| 06.01.2015 | 243 | Verilmiş qısamüddətli avanslar | Və ya alınacaq materialların ƏDV ilə birlikdə dəyəri qabaqcadan avans olaraq təhtəlhesab şəxs vasitəsilə malsatana (malsatanın kassasına) ödənilib | 11800 | |
| 06.01.2015 | 244 | Təhtəlhesab məbləğlər | Və ya alınacaq materialların ƏDV ilə birlikdə dəyəri qabaqcadan avans olaraq təhtəlhesab şəxs vasitəsilə malsatana (malsatanın kassasına) ödənilib | | 11800 |
| 15.01.2014 | 201 | Xammal və materiallar | Materiallar alınmışdır (malsatandan tam təhvil alınıb) (ƏDV ilə birlikdə məbləğ) | 11800 | |
| 15.01.2014 | 531 | Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Materiallar alınmışdır (malsatandan tam təhvil alınıb) (ƏDV ilə birlikdə məbləğ) | | 11800 |
| 15.01.2015 | 201 | Xammal və materiallar | Materialların müəssisənin anbarına daşınması üçün kənar yükdaşıma xidməti göstərən sadələşdirilmiş vergi ödəyicisi olan müəssisənin xidmətləri qəbul edilib | 700 | |
| 15.01.2015 | 531 | Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Materialların müəssisənin anbarına daşınması üçün kənar yükdaşıma xidməti göstərən sadələşdirilmiş vergi ödəyicisi olan müəssisənin xidmətləri qəbul edilib | | 700 |
| 15.01.2015 | 531 | Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Kənar yükdaşıma xidməti göstərən sadələşdirilmiş vergi ödəyicisi olan müəssisənin göstərdiyi xidmətlərin dəyəri təhtəlhesab şəxs tərəfindən ödənilib (həmin müəssisənin kassasına ödənilib) | 700 | |
| 15.01.2015 | 244 | Təhtəlhesab məbləğlər | Kənar yükdaşıma xidməti göstərən sadələşdirilmiş vergi ödəyicisi olan müəssisənin göstərdiyi xidmətlərin dəyəri təhtəlhesab şəxs tərəfindən ödənilib (həmin müəssisənin kassasına ödənilib) | | 700 |
| 15.01.2015 | 531 | Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Kassadan və ya təhtəlhesab şəxs tərəfindən nağd qaydada malsatana avans olaraq ödənilən ƏDV ilə birlikdə məbləğ zaçot edilir | 11800 | |
| 15.01.2015 | 243 | Verilmiş qısamüddətli avanslar | Kassadan və ya təhtəlhesab şəxs tərəfindən nağd qaydada malsatana avans olaraq ödənilən ƏDV ilə birlikdə məbləğ zaçot edilir | | 11800 |

Cədvəldən göründüyü kimi, müəssisəyə daxil olan materialların ehtiyat kimi uçota alınan dəyəri 12500 (11800 + 700) manat, yəni materialların ƏDV ilə birlikdə alış dəyəri ilə daşınması xərclərinin cəmi qədər təşkil edəcəkdir. Alıcı müəssisə tərəfindən alınan malların dəyəri nağd qaydada ödənilsə belə, malsatan müəssisə alıcıya vergi hesab-fakturası (VHF) təqdim edə bilər. Lakin alıcı müəssisə tərəfindən aldığı VHF üzrə Vergi Məcəlləsinin müddəalarına uyğun olaraq əvəzləşdirmə aparmağa yol verilmir. Alıcı müəssisə bu materialların vergitutma məqsədləri üçün xərclərə silinməsini ƏDV ilə birlikdə dəyərlə həyata keçirə bilər.

# lav d y r vergisi: borc g st ricisinin paylanmas

*Dövlət büdcəsinə vergilərin ödənilməsində əlavə dəyər vergisi (ƏDV) mütləq üstünlük təşkil edir. ƏDV ödəyicilərinin iqtisadi fəaliyyətində, eləcə də vergilərin ödənilməsi potensialını qiymətləndirmək üçün vergilərin borc göstəricisi mühüm əhəmiyyətə malikdir.*

Azərbaycan Respublikasında hazırda 18 mindən çox ƏDV ödəyicisi fəaliyyət göstərir. 2014-cü il ərzində Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən dövlət büdcəsinə 7 mlrd. 113 mln. 622,4 min manat vəsait ödənilmişdir ki, bunun da 2 mlrd. 48 mln. 656,7 min manatı (təxminən 29%-i) ƏDV-nin payına düşür. ƏDV ödəyicilərinin fəaliyyətini xarakterizə edən vergi bəyannaməsi göstəricilərinin (dövriyyələri, ödəmələri, hesablamaları, vergi borcları, artıq ödəmələri və s.) paylanmalarının müəyyən edilməsi fəaliyyətin təhlilinə, vergi nəzarətinin gücləndirilməsinə və vergidən yayınma risklərinin qiymətləndirilməsinə xeyli dərəcədə kömək edir. Lakin ƏDV ödəyicilərinin vergidən yayınma riski bir qayda olaraq statistik üsullarla, o cümlədən statistik paylanma üsulları ilə təhlil edilir. Bu zaman təhlil edilən göstərici normal və ya asimptotik normal paylanma qanunlarına tabe olmadıqda nəticələr qeyri-effektiv olur. Ona görə də təhlildən əvvəl göstəricilərin paylanma qanunlarının qiymətləndirilməsi zərurəti yaranır.

İqtisad üzrə fəlsəfə doktoru, AMEA-nın İdarəetmə Sistemləri İnstitutunun «Sosial-iqtisadi proseslərin modelləşdirilməsi» laboratoriyasının böyük elmi işçisi Səyyad Ağayev mövzu ilə bağlı şərhində bildirib ki, sahibkarlıq fəaliyyəti göstərən və ardıcıl 12 aylıq dövr ərzində vergi tutulan əməliyyatların həcmi 150 000 manatdan artıq olan hüquqi və 90 000 manatdan artıq olan fiziki şəxslər ƏDV ödəyiciləri kimi qeydiyyatdan keçirlər: «ƏDV ödəyiciləri ƏDV ödəməklə bərabər (ƏDV-nin dərəcəsi hər vergi tutulan əməliyyatın və hər vergi tutulan idxalın dəyərinin 18 faizi), digər dövlət vergilərini də ödəyirlər (şəxsi gəlir vergisi, mənfəət vergisi, əmlak vergisi, torpaq vergisi və s.). Nəzərə alsaq ki, ƏDV ödəyicilərinin dövriyyələri sadələşdirilmiş vergi ödəyicilərinə nisbətən xeyli böyük olur və ödədikləri vergi növləri də çoxdur, onda belə qənatə gələ bilərik ki, ƏDV ödəyicilərinin fəaliyyətlərinin təhlili, o cümlədən vergilərdən yayınma risklərinin müəyyən edilməsi daha böyük aktuallığa malikdir. Deməli, ƏDV ödəyicilərinin fəaliyyətini xarakterizə edən göstəricilərin paylanma qanunlarının müəyyən edilməsinə daha böyük ehtiyac var. Statistik təhlil və modelləşdirmədə bir qayda olaraq iqtisadi göstəricilərin, o cümlədən vergi ödəyicilərinin fəaliyyətini xarakterizə edən göstəricilərin normal və asimptotik normal paylanmaya malik olduğu qəbul edilir. Lakin elə hallar ola bilər ki, bu fərziyyə özünü doğrultmasın. Bu zaman vergidən yayınma risklərinin qiymətləndirilməsinin nəticələri reallıqdan kənarlaşa bilər. Ona görə də vergi ödəyicilərinin fəaliyyətinin statistik təhlili ilk növbədə göstəricilərin paylanma qanununun müəyyən edilməsi ilə başlanmalıdır».

S.Ağayev onu da qeyd etdi ki, əsas məqsəd ƏDV ödəyicilərinin fəaliyyətlərini xarakterizə edən göstəricilərin paylanmalarının statistik qiymətləndirilməsidir. Daha doğrusu, ƏDV ödəyicilərinin dövriyyə, hesablama, ödəmə, artıq ödəmə və borc kimi göstəricilərinin seçmə müşahidə əsasında empirik paylanmalarının parametrlərinin qiymətləndirilməsi və $\chi^2$ razılıq meyarı ilə seçilmiş paylanmanın əhəmiyyətliliyinin müəyyən edilməsi başlıca vəzifədir. Əgər ƏDV ödəyicilərinin fəaliyyətlərini xarakterizə edən göstəricilər normal və ya asimptotik normal paylanmaya tabe olarsa, onların fəaliyyətində vergidən yayınma risklərinin qiymətləndirilməsində normal paylanmaya əsaslanmaq mümkündür.

«Araşdırma üçün təsadüfi seçmə ilə 3810 ƏDV ödəyicisinin fəaliyyətini əks etdirən əsas göstəricilər (dövriyyə, hesablama, ödəmə, artıq ödəmə və borc) götürülmüşdür. Bu ödəyicilərdən 940-nın illik vergi borcu var və tədqiqat işində həmin göstəricinin paylanması qiymətləndirilmişdir.

Seçməyə cəlb olunmuş vergi ödəyicilərinin illik vergi borcu 0 manatdan 277 286 manata qədər dəyişir. İllik vergi borcuna görə vergi ödəyicilərini qruplara bölürük. İrəli sürdüyümüz hipotez, yəni ƏDV ödəyicilərinin borc göstəricisinin eksponensial qanunla paylanması (asimptotik normal paylanma) haqqında fərziyyə rədd edilir. Bu bir daha ƏDV ödəyicilərinin borc göstəricisinin normal və ya asimptotik normal paylanmaya malik olmadığını göstərir. Qeyd edək ki, ƏDV ödəyicilərinin borc göstəricisinin digər asimptotik normal paylanma qanunlarına malik olub-olmadığı Puasson paylanma qanunu ilə yoxlanılmış və müəyyən edilmişdir ki, borc göstəricisi normal və ya asimptotik normal paylanma qanunlarına tabe deyil. Ona görə də həmin göstərici əsasında risklərin qiymətləndirilməsi ənənəvi statistik üsullarla deyil, digər üsullarla tədqiq edilməlidir».

Beləliklə, müvafiq metodologiya əsasında məyyən edilmişdir ki, Azərbaycan Respublikasında fəaliyyət göstərən ƏDV ödəyicilərinin illik vergi borcu üzrə aparılmış analoji hesablamalara görə, bu göstərici eksponensial (üstlü) paylanmaya malik deyil. Bunun səbəblərinin müəyyənləşdirilməsi üçün əlavə tədqiqatlar aparılmalıdır. Bu göstərici üzrə vergidən yayınma risklərinin paylanma qanunları ilə (normal paylanma, t-paylanması, $\chi^2$xi-kvadratı paylanması, eksponensial paylanma, Puasson paylanması və s.) qiymətləndirilməsi müəyyən yanlışlıqlar yarada bilər: «Ona görə də burada təklif edilən üsul göstəricilərin normal paylanması zərurətini tələb etmir. Bu yanaşma Birləşmiş Millətlər Təşkilatının inkişaf proqramının ölkələrin inkişaf reytinqinin hesablanmasında tətbiq edilən metodikaya əsaslanır».

**Fəxriyyə İKRAMQIZI**

vergi təqvimi

| AVQUST | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | | 1 | 2 |
| 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 |
| 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 |
| | 25 | 26 | 27 | 28 | 29 | 30 |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

17 avqust - «5», «(5)» və «6».
20 avqust - «(1-1)», «3», «4», «7», «8», «10.1», «10.2» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.
Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«5» - Əmlak vergisi:** Fiziki şəxslər avqust ayının 15-dən gec olmayaraq illik əmlak vergisinin yarısını yerli (bələdiyyə) büdcəyə ödəyirlər.

**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlət büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

**«6» - Torpaq vergisi:** Torpaq vergisi üzrə hesabat dövrü təqvim ilidir. Avqust ayının 15-dən gec olmayaraq illik torpaq vergisinin yarısını hüquqi şəxslər dövlət büdcəsinə, fiziki şəxslər isə yerli (bələdiyyə) büdcəyə ödəyirlər.

**«7» - Yol vergisi:** Yol vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

beynəlxalq panoram

# Sloveniyada daşınmaz əmlak vergisi tətbiq ediləcək

Hökumətin xüsusi ekspert qrupu ötən il ləğv olunan daşınmaz əmlak vergisinin yeni forma və hədləri ilə bağlı layihə üzərində işləyir. Ölkədə daşınmaz əmlak vergisini bərpa etmək müzakirə mövzusudur. Hökumətin hesablamalarına görə, yeni vergi sayəsində Sloveniya bələdiyyələrinin illik daxilolmaları 200 milyon avro təşkil edə bilər. Lakin yeni vergi Sloveniyada daşınmaz əmlak sahibləri, fermerlər, şəxsi sahibkarlar və müəssisə sahibkarları, həmçinin bələdiyyələr və müxalif siyasi partiyalar arasında qızğın reaksiya doğurub.

Çünki bəziləri üçün bu vergi onların dövlətə ödədiyi məbləğləri əhəmiyyətli dərəcədə artırır.

Xatırladaq ki, ötən ilin fevralında ölkənin Konstitusiya Məhkəməsi sahibkarlara vergi qəbzlərinin göndərilməsini dayandırmışdı. Martda isə daşınmaz əmlaka vergi haqqında qanunu, həmçinin vergitutma məqsədləri üçün qanunun daşınmaz əmlakın kütləvi qiymətləndirilməsi ilə bağlı maddələrini ləğv etdi. Bundan başqa, Konstitusiya Məhkəməsi 2012-ci ilin ikinci yarısından 2013-cü ilin sonuna kimi Sloveniya Respublikasında bahalı daşınmaz əmlaka tətbiq olunan vergini də ləğv etmişdi.

Baş nazir Serar Mironun rəhbərlik etdiyi yeni hökumət isə yenidən daşınmaz əmlaka verginin tətbiq ideyasına qayıdıb. Cari ilin fevralında layihənin koordinasiya və idarə olunması üzrə Şura və xüsusi layihə qrupu yaradılıb. Daşınmaz əmlak vergisinin tətbiqi üzrə yekun qərar hələlik qəbul edilməsə də, işçi qrup vergitutma obyektlərinin müəyyənləşdirilməsi, vergi bazasının və verginin tətbiqinin təxmini qrafikinin hazırlığı üzrə iş aparır.

Əvvəlki hökumət kimi, yeni hökumət də daşınmaz əmlakla bağlı mövcud vergiləri vahid vergidə birləşdirməyi planlaşdırır.



# Qırğızıstanda özəl uşaq bağçaları mənfəət vergisindən azad edilib

Parlament deputat qrupunun təşəbbüsü ilə özəl uşaq bağçalarını vergilərdən azad edilməsi ilə bağlı məsələ Məclisin müzakirəsinə çıxarılıb. Millət vəkilləri yeni uşaq müəssisələrinin tikintisini stimullaşdırmaq məqsədi ilə özəl uşaq bağçalarının mənfəət, satış vergisi və ƏDV-dən azad edilməsini təklif ediblər. Təşəbbüs qrupu qeyd edib ki, qüvvədə olan Vergi Məcəlləsinə əsasən, dövlət və bələdiyyə uşaq bağçaları gəlir vergisi istisna olmaqla digər vergilərdən azad edilib. Deputatlar yeni uşaq bağçalarının açılmasını stimullaşdırmaq məqsədilə özəl bağçaların da eyni şərtlərlə fəaliyyət göstərməsini zəruri hesab ediblər.

Qırğızıstanda 699 uşaq bağçası var ki, onlardan 499-u dövlət, qalanları isə özəl sektora aiddir. Özəl sektora aid bağçalar ildə təxminən 5 milyon som (100 qırğız somu = 1,7 ABŞ dolları) vergi ödəyirlər. Uşaq bağçalarına tələbatı ödəmək üçün hökumət 2500 belə müəssisə inşa etməlidir. Lakin 2014-cü ildə dövlət büdcəsi hesabına yalnız 1 uşaq bağçası tikilib istifadəyə verilib.

Buna görə də parlament bu sahədə özəl sektora dəstək vermək qərarına gəlib və müvafiq təşəbbüsü dəstəkləyib. Bununla əlaqədar Vergi Məcəlləsinə müvafiq dəyişiklik olunub.

# İrlandiyada vahid əmlak vergisinin tətbiqi imkanları nəzərdən keçirilir

Hökumətin yerli daşınmaz əmlak vergisinə vahid dərəcənin tətbiqi imkanını nəzərdən keçirməsi barədə Baş nazirin müavini Coan Berton məlumat verib. Baş nazir müavininin sözlərinə görə, daşınmaz əmlaka qiymətlərin artımı yerli daşınmaz əmlak vergisinin kəskin artmasına gətirib çıxara bilər. Bu, xüsusilə də Dublin kimi mərkəzi ərazilərdə özünü kəskin göstərəcəkdir.

Maliyyə naziri M.Nunan da yerli daşınmaz əmlak vergisinin tətbiqi mexanizminə yenidən baxılmasının zərurətini qeyd edib. İlkin əmlak vergisi üzrə hesabatın hazırlanması sabiq maliyyə nazirinə həvalə edilib. Onun rəhbərlik etdiyi işçi qrup yerli daşınmaz əmlak vergisinin ümumi tətbiqi sistemini nəzərdən keçirməli və bu verginin ümumi vergi daxilolmalarında yerini müəyyən etməlidir. İşçi qrup qiymət dəyişikliyinin ümumi gəlirlərə təsirini təhlil etməli, yerli daşınmaz əmlak vergisi üzrə daxilolmaların sabit qalması üçün sistemin təkmilləşdirilməsi yollarını araşdırmalıdır.

Xarici ölkələrin təcrübəsi

# Belarus Respublikasının vergi sistemi: ƏDV

ƏDV mal və xidmətlərin təqdim edilməsinin bütün mərhələlərinə tətbiq edilir. Ödənilmiş ƏDV yekun vergi öhdəliyinin hesablanmasında nəzərə alındığına görə faktiki olaraq yalnız əlavə edilən dəyər vergiyə cəlb edilir.

ƏDV məqsədləri üçün vergi ödəyiciləri yalnız rezident hüquqi şəxslər və Belarusda biznes fəaliyyəti həyata keçirən qeyri-rezident şəxslər deyil, həm də rüblük dövriyyələri 40 000 avro ekvivalentindən artıq olan fərdi sahibkarlardır.

ƏDV mal, xidmət və mülkiyyət hüququnun ölkə daxilində təqdim edilməsi və idxalına tətbiq edilir. Konsaltinq, hüquq, mühasibat, mühəndislik, reklam, proqram təminatının yaradılması, işlə təmin edilmə, bank, sığorta və bəzi digər xidmətləri qəbul edən şəxs iqtisadi fəaliyyətini Belarusda həyata keçirirsə və ya Belarusda yerləşirsə, həmin xidmətlərin təqdim edildiyi yer Belarus hesab edilir.

Vergiyə cəlb olunan məbləğ satış qiymətidir (ƏDV nəzərə alınmadan, aksizlər daxil olmaqla). İdxal zamanı vergiyə cəlb edilən dəyərə gömrük dəyəri, gömrük rüsumları və aksizlər daxil edilir. Əgər vergi ödəyicisi həm vergiyə cəlb edilən, həm də vergidən azad olunan əməliyyatlar həyata keçirirsə, həmin əməliyyatlar ayrıca qeydə alınmalıdır.

ƏDV-nin standart dərəcəsi 20% təşkil edir. Yerli kənd təsərrüfatı və qida məhsullarına və uşaqlar üçün nəzərdə tutulmuş bəzi mallara 10% dərəcə tətbiq edilir. Gömrük İttifaqının digər üzv dövlətlərindən (məsələn, Rusiya və Qazaxıstan) almaz və digər qiymətli daşların idxalına 0,5% dərəcə tətbiq edilir. Malların ixracı və beynəlxalq nəqliyyat xidmətləri ƏDV-yə 0 dərəcə ilə cəlb edilir.

Vergidən azad olunan mallara bəzi tibbi məhsullar aid edilir. Azad olunan xidmətlərə isə tibbi, təhsil, məişət əşyalarının təmiri, gəlmə turizm xidmətləri, ixtira və faydalı modellərə münasibətdə əqli mülkiyyət hüququnun təminatı, bank, sığorta və fiziki şəxslərə daşınmaz əmlakın qeydiyyatı xidmətləri aiddir.

Belarusdan kənarda yerləşən qeyri-rezident vergi ödəyiciləri tərəfindən Belarusda qeydiyyatdan keçmiş vergi ödəyicilərinə mal, xidmət və mülkiyyət hüquqlarının təqdim edilməsi «reverse charge» mexanizmi ilə vergiyə cəlb edilir.




# Almaniyada yeni nəqliyyat vergisi tətbiq ediləcək

Ölkə Bundestaqının Aşağı Palatası yeni yol vergisinin (federal yollar və avtobanlara görə gediş haqları) tətbiqi planını təsdiq edib. Həmin sənəd xarici avtomobil sürücülərinə diskriminasiya xarakteri daşıdığına görə dəfələrlə sərt tənqidə məruz qalıb.

Plana əsasən, yeni vergi sistemi 2016-cı ildən tətbiq olunmağa başlayacaq. Sürücülər vergini 10 günlük, 2 aylıq və ya 1 illik ödəyə bilərlər və bunun üçün ödənişi təsdiq edən qəbz əldə etməlidirlər. 10 günlük və 2 aylıq qəbzlər müvafiq olaraq 10 və 20 avroya başa gələcək. 1 illik vergi isə avtomobilin mühərrikinin həcmindən və karbon tullantılarından asılı olaraq hesablanacaq və maksimal qiyməti 130 avro təşkil edəcək.

Vergi bütün avtomobillərə tətbiq ediləcək, lakin mövcud qanunvericiliyə görə, yerli sürücülər nəqliyyat vergisindən çıxılmalar əldə etdiklərindən, müəyyən üstünlüyə malik olacaqlar.

Bundestaq tərəfindən təsdiq edildiyindən, qanun layihəsi Aşağı Palatada əlavə maneələrlə rastlaşmayıb. Lakin sənədin Avropa Ədliyyə Məhkəməsində mübahisələndiriləcəyi dəqiqdir. Avropa İttifaqı rəhbərliyi hesab edir ki, Almaniyanın tətbiq etdiyi yığımlar əcnəbilərin hüquqlarının pozulmasına gətirməməlidir.

Almaniya hökuməti yeni vergidən il ərzində təxminən 500 milyon avro gəlir gözləyir və bu vəsaitlərin avtomobil yollarının saxlamasına yönəldiləcəyini bəyan edib.

*Rubrika üçün materialları Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*



krossvord

**Yuxarıdan aşağı:** 1.Azot turşusunun duzu; 2.Rus yazıçısı İvan Qonçarovun məşhur romanı; 3.Biri oksigen olmaqla iki elementdən ibarət olan mürəkkəb maddə; 4.Nigeriyanın cənub-qərbində şəhər; 5.Avstriya imperiyasının imperatoru. Müqəddəs Roma imperiyasını ləğv edib. Əvvəlcə Napoleonun düşməni, daha sonra isə qaynı olub; 6.Kiçikhəcmli mühərrik ilə təchiz olunan ikitəkərli nəqliyyat vasitəsi; 9.Rusiya parlamenti; 13.Çilidə çay; 15.Şabran rayonunda kənd; 16.Kimyəvi element (qaz); 17.Kiçik həcmli vokal əsəri. Azərbaycanda ən gözəl nümunələrini Üzeyir Hacıbəyli yaradıb; 18.Tropik meyvə; 20.Simləri üfüqi düzülmüş klavişli musiqi aləti; 21.İngiltərədə şəhər.

**Soldan sağa:** 1.Dildə yeni əmələ gəlmiş söz və ya ifadə; 5.Azərbaycanda və Osmanlıda bir vaxtlar geniş yayılmış kişi baş geyimi. Adı Mərakeşin şəhərindən götürülmüşdür; 7.Bəzi xalqların inanclarına görə bədnəzərdən qoruyan, xoşbəxtlik və müvəffəqiyyət gətirən sehrli əşya (amulet); 8.İranın Qərbində qədim Azərbaycan şəhəri; 10.Gülçiçəyikimilər fəsiləsinə aid bitki cinsi (meyvə); 11.Latviyanın şimal-şərqində eyniadlı gölün sahilində yerləşən şəhər; 12.Türk mifologiyasında əjdaha, Türkiyədə populyar kişi adı; 14.Dekorasiya və ya istilik yaratmaq məqsədi ilə divara vurulan və ya döşəməyə salınan müxtəlif rəngli yun və ya iplik saplardan toxunmuş naxışlı əşya; 19.Aralıq dənizi hövzəsində cənub və cənub-şərq istiqamətində əsən güclü, isti külək; 21.Yaxın və Orta Şərq ədəbiyyatında əsərlərin əlifba sırasına əsasən düzüldüyü şeirlər məcmuəsi; 22.İspaniyada şəhər; 23.Düzəngah ərazi. Səfəvi və Osmanlı dövlətləri arasında 23 avqust 1514-cü ildə baş vermiş döyüş bu ərazinin adı ilə adlandırılır; 24.At, qatır və s. heyvanların dırnaqlarına sürüşməkdən və zədələnməkdən qorumaq üçün vurulan xüsusi formalı dəmir lövhəcik; 25.Ekslibris - Kitab və kitabxana sahibləri tərəfindən kitabın cildinin daxili tərəfinə yapışdırılan və ya basılan kitab nişanı, kağız etiket.



*Bəzi xalqların inanclarına görə bədnəzərdən qoruyan, xoşbəxtlik və müvəffəqiyyət gətirən sehrli əşya*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Nubiya; 2.Şabalıd; 3.Rəvan; 4.Vəsimə *(İsmayılqızı)*; 5.Sevda; 6.Dərviş; 9.Arpa; 13.Arta; 15.Taliban; 16.Skalli *(Şon)*; 17.Afrika; 18.Meteor; 20.Namiq *(Abdullayev)*; 21.Hobbi. **Soldan sağa:** 1.Nuşirəvan; 5.Süd; 7.Babuvist; 8.Avar; 10.Yalan; 11.Mariaçi; 12.Edqar *(Po)*; 14.Kasta; 19.Kenotaf; 21.Helme; 22.Lima; 23.Zimbabve; 24.İrq; 25.Stasionar.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 14000

## idman

# Veloparkda kriterium ötüşmələri üzrə federasiya kuboku yarışı keçirilib

Azərbaycan Velosiped İdmanı Federasiyasının (AVİF) cari il üçün təqvim-planına əsasən, Veloparkda kriterium ötüşmələri üzrə federasiya kuboku yarışı keçirilib. İki gün davam edən yarışda AVİF-in nəzdində fəaliyyət göstərən klub və cəmiyyətlərin 70-dən artıq idmançısı mübarizə aparıb. Bundan başqa, yarışda həvəskar velosipedçilərdən ibarət «CycleMania» qrupunun üzvləri də iştirak ediblər.

Reqlamentə əsasən, Elit, U-23 və gənclər kateqoriyasında yarışan velosipedçilər uzunluğu 1600 metr olan dairəvi marşrut boyunca 30, U-17 yaş qrupu üzrə idmançılar 16, U-15 yaş qrupunda mübarizə aparanlar isə 8 dövrə vurublar. Hər 3 yaş kateqoriyasında qalib adını 8 saylı idman olimpiya məktəbinin təmsilçiləri qazanıblar.



Mükafatçılar federasiya tərəfindən medal, diplom, kubok və pul mükafatı ilə təltif ediliblər.

# Həmyerlimiz beynəlxalq şahmat festivalının qalibi olub

Avstriyada keçirilən «Vyana Open 2015» beynəlxalq şahmat festivalı başa çatıb. 50 ölkədən 850 şahmatçının iştirak etdiyi yarışda Azərbaycanın idman şərəfini Eltac Səfərli, Nərgiz Umudova, Tofiq İsrafilov, Afiq İsrafilov və digərləri təmsil ediblər. Festival A ,B, C və D turnirlərindən ibarət olaraq keçirilib.

Festival çərçivəsində, həmçinin Azərbaycan qrossmeysteri Şəhriyar Məmmədyarov ilə yerli şahmatçı Markus Ragger arasında 6 oyundan ibarət qarşılaşma oynanılıb. Şəhriyar Məmmədyarov 3,5-2,5 hesabı ilə yarışın qalibi olub.

Festivalın «A» turnirində mübarizə aparan təmsilçilərimizdən Eltac Səfərli aktivinə 7 xal yazaraq 6-18-ci yerləri bölüşdürüb. Nərgiz Umudova isə 9 oyundan 5,5 xal toplayıb. «C» turnirində iştirak edən həmyerlilərimiz Tofiq İsrafilov 6,5 xalla 6-cı, Afiq İsrafilov isə 6 xalla 17-ci yerin sahibi olub.

İsveçrə sisteminə əsasən keçirilən yarış 9 turdan ibarət olub.

# Anatoli Banişevskinin forması «Marakana» muzeyində

1965-ci il noyabrın 21-də Braziliyanın möhtəşəm «Marakana» stadionuna toplaşmış 132 min azarkeş onilliyin qoluna şahidlik etdi. Məhz həmin gün «Marakana»da oynanılan Braziliya - SSRİ matçında «Neftçi»nin yetirməsi Anatoli Banişevski başla uzaq məsafədən vurduğu qolla adını tarixə yazdırdı. Matçın 54-cü dəqiqəsində Pelenin vurduğu qola sevinən azarkeşlər, cəmi beş dəqiqə sonra sükuta qərq oldular. Qoldan sonra A.Banişevskiyə yaxınlaşan Pele onun əlini sıxaraq təbrik etdi. Braziliyalıların yaddaşında «Qızıl baş» ləqəbi ilə qalan əfsanəvi futbolçu «Marakana» stadionunda qol vurmuş yeganə həmyerlimizdir. Braziliyada yaşlı nəslin nümayəndələri həmin matçı və A.Banişevskinin qolunu yaxşı xatırlayırlar. Gənc nəsil isə tarixə şahidlik etmək üçün «Marakana» muzeyinə üz tutur.

«Neftçi» peşəkar futbol klubunun Braziliyada işgüzar səfərdə olan icraçı direktoru Elnur Məmmədov və idman direktoru Vəli Qasımov «Marakana» muzeyinin nümayəndələri ilə görüşüblər. Görüş əsnasında Azərbaycan futbol tarixinin ən köklü klubu olan «Neftçi» barədə məlumat verilib.

Sonra komandamızın yetirməsi olan və peşəkar karyerası ərzində yalnız «Neftçi»də oynamış A.Banişevskinin «Marakana»da vurduğu qol xatırlanıb və futbolçu haqqında rəsmi məlumatlar muzey rəhbərliyinin diqqətinə çatdırılıb. Sonda əfsanəvi futbolçumuz A.Banişevskinin forması muzeyə hədiyyə edilib.

Bundan sonra Braziliyanın futbol iqamətgahı sayılan bu stadionda yerli azarkeşlər «Neftçi»də 9 nömrə ilə çıxış etmiş A.Banişevskinin formasını görə biləcəklər.




## mozaika

maraqlı

# Avropa çempionatının medalları Azərbaycan istehsalıdır

Londonda avqustun 21-də başlayan və 30-dək davam edəcək otüstü xokkey üzrə Avropa çempionatında (EuroHockey-2015) uğur qazanacaq komandalara təqdim etmək üçün medallar dosti Bakıda Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin «Azərsuvenir» Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən hazırlanıb.



Çempionat ərəfəsində «EuroHockey-2015»in medallarının Britaniya paytaxtında təntənəli təqdimat mərasimi keçirilib. Müasir texnologiya əsasında yüksək peşəkarlıq və zövqlə hazırlanmış medalları sifarişçiyə «Azərsuvenir» MMC-nin direktoru Tariyel Ağayev təqdim edib, müəssisənin fəaliyyət istiqamətlərindən, ölkəmizin iqtisadi uğurlarından danışıb.

«Azərsuvenir»in xokkey üzrə növbəti qitə çempionatının medallarını hazırlamaq hüququnu tender müsabiqəsində qalib gələrək qazandığını vurğulayan T.Ağayev deyir:

- «Azərsuvenir» bundan əvvəl «Bakı-2015» ilk Avropa Oyunlarının medallarını hazırlamışdır. Mütəxəssislər «Bakı-2015»in medallarını bütün parametrlərinə görə yüksək qiymətləndirdilər. Londondakı təqdimat mərasimində çıxış edən mütəxəssislər dönə-dönə vurğuladılar ki, dünyada idman dövləti kimi tanınan Azərbaycan artıq beynəlxalq miqyaslı yarışların medallarının hazırlanması üzrə sifarişçi ölkədən sifariş qəbul edən ölkəyə çevrilib. Bu, çox qürurverici idi. Bu, müstəqil Azərbaycanın iqtisadi, siyasi və humanitar nüfuzunun beynəlxalq aləmdə daha da artmasının göstəricisidir.

«Azərsuvenir» MMC-nin yaradılmasında əsas məqsəd dövlət orden və medallarının, Azərbaycanın tarixinə, mədəniyyətinə, milli adət-ənənələrinə aid olan naxışlarla işlənmiş suvenirlər hazırlamaqdır. Müasir texniki avadanlığa malik olan müəssisə bu istiqamətdə fəaliyyətini genişləndirir.

sağlam həyat tərzi

# Həftənin ən ağır günü...

*Böyük Britaniyanın əhalisi hər cəhətdən həftənin ən ağır gününün bizim hesab etdiyimiz kimi bazar ertəsi deyil, çərşənbə axşamı olduğunu deyirlər.*

London İqtisadiyyat Məktəbinin psixoloqları bu qənaətə Dumanlı Albionun təxminən iyirmi min sakini arasında keçirdikləri sorğu nəticəsində gəliblər. Onların çoxu məhz çərşənbə axşamının ən uğursuz və psixoloji cəhətdən çətin gün olduğunu iddia edir. Onlar həftənin müxtəlif günlərində vəziyyətlərini və hisslərini kifayət qədər ətraflı təsvir edərək seçimlərini açıqlayıblar. Bazar ertəsi əməkdaşların çoxunun hələ həftəsonu təəssüratında və yüksək əhval-ruhiyyədə olduğu aşkar edilib. Çərşənbə axşamı isə bütün işçilər hələ qabaqda iş həftəsinin olduğunu və bundan qaça bilməyəcəklərini anlayaraq məyusluq hissi keçirirlər.



Qeyd edək ki, avstraliyalı mütəxəssislər də buna bənzər tədqiqat aparıblar və fərqli nəticəyə gəliblər. Onların fikrincə, həftənin ən çətin və uğursuz günü çərşənbədir.

mədəniyyət

# «Mən gedirəm, ağlama...»

Nəfis şəkildə çapdan çıxmış növbəti miniatür kitab şöhrəti Azərbaycandan çox-çox uzaqlara yayılmış görkəmli müğənni və aktyor, SSRİ xalq artisti Rəşid Behbudova həsr olunub.

Xalq yazıçısı Elçinin müəllifi olduğu kitab «Mən gedirəm, ağlama... Rəşid Behbudovun sənəti və şəxsiyyəti» adlanır.

Prezident İlham Əliyevin dünya şöhrətli müğənni Rəşid Behbudovun 100 illik yubileyinin qeyd edilməsi ilə bağlı imzaladığı sərəncama uyğun olaraq ölkəmizin bütün bölgələrində silsilə tədbirlərin keçirildiyi bu günlərdə belə bir kitabın işıq üzü görməsi olduqca təqdirəlayiq haldır.

Mədəniyyət və Turizm Nazirliyinin Miniatür Kitab Muzeyi ilə birgə nəşr etdirdiyi kitab yüz nüsxə tirajla çap olunub. Ölçüsü 38x45 mm olan bu kitab 136 səhifədən ibarətdir. Miniatür kitabda 46 rəngli fotoşəkil yer alıb. Xüsusi zövqlə hazırlanmış kitabın forzasında Azərbaycanın xəritəsi əks olunub.

Kitabda xalq yazıçısı Elçinin dünya şöhrətli ifaçı Rəşid Behbudov haqqında xatirələri, onunla söhbətləri, eləcə də ifaçının bənzərsiz sənət dünyası ilə bağlı düşüncələri, fikirləri yer alıb.

Bu miniatür kitab hər bir oxucuya bir daha Rəşid Behbudov sənətinin və şəxsiyyətinin böyüklüyü haqqında çox dəyərli məlumatlar verəcək.




ixtira

# Qaranlıqda insan sifətinin tanınması üçün qurğu

Almaniyanın Karlsruye Texnologiya İnstitutunun alimləri Saquib Sarfraz və Rainer Stiefelhagen tam qaranlıq şəraitdə insan sifətini tanımaq bacarığına malik yeni qurğu ixtira ediblər.



Azərbaycan Milli Elmlər Akademiyasından AZƏRTAC-a bildiriblər ki, qeyd olunan qurğu insanın üz cizgilərini infraqırmızı spektrdə təsvir edərək onları adi şəkillərlə müqayisə edir. Şəkillərin unikal emal sistemi sayəsində bu texnologiya sifətləri yalnız pis işıqlandırma şəraitində deyil, həmçinin tam qaranlıqda da identifikasiyaetmə bacarığına malikdir. Qurğunun yaradıcıları ondan kommersiya məqsədilə istifadə etmək niyyətində deyillər. Onların sözlərinə görə, layihə hazırlananda yalnız elmi hədəflər prioritet götürülüb.

Gələcəkdə insan sifətinin qaranlıqda identifikasiyası qurğusu cinayətkarların şəxsiyyətinin müəyyənləşdirilməsi üçün polis orqanları tərəfindən istifadə oluna bilər.

**Müdriklər deyib ki...**

*«Ədalət ancaq həqiqətdən, səadət ancaq ədalətdən əmələ gələ bilər».*
*Anatol Frans (1844-1924)*

